«QURAN DƏRSLƏRİ» SİLSİLƏSİNDƏN

{2}

بسم الله الرحمن الرحيم

# Qurani-kərimin

# TƏCVİDİ

Müəllif: **Məhəmməd Rza Şəhidi**

**«Quran dərsləri» silsiləsindən** məcmuəsi üç hissədən ibarətdir**:**
**1. Qurani-kərimin rəvan oxunuş qaydaları**;
**2. Qurani-kərimin təcvidi;**
**3. Qurani-kərimin qiraəti.**
**«Qurani-kərimin təcvidi»** adlı ikinci kitabda ərəb hərflərinin məxrəc və sifəti ilə tanış olmaqla yanaşı, onların Quran kəlmələrində əhkamı da öyrədilir.

**Kitabın adı:..Qurani-kərimin təcvidi**
**Müəllif: ........Məhəmməd Rza Şəhidi**
**Nəşr edən:....“Əl-Bəlağ” müəssisəsi**
**Çap növbəsi: Birinci**
**Çap tarixi:....2002**
**Tiraж:...........5000**

**Birinci dərs**

## TƏCVİD VƏ ƏRƏB ƏLİFBASI

Şərəfli «وَرَتِّلِ ٱلْقُرْءَانَ تَرْتِيلاً» ayəsinə əsasən Qurani kərimin qiraəti «تَرْتِيل» "tərtil" surətində olmalıdır.

### Tərtilin mənası

Tərtil lüğətdə "**tənzim**" və "**həmahəng etmək**" mənasına olub, qiraət istilahında isə "**Quranı, kəlmə və hərfləri düzgün tələffüz olunsun deyə münəzzəm surətdə və hecalamaqla oxumaqdır. Bu oxumaq, ayələrin mənasına diqqət yetirməklə yanaşı olmalıdır**".

Qurani kərimin kəlmə və hərflərinin düzgün tələffüzü üçün **"təcvid elmi"** əmələ gəlmişdir.

### Təcvidin mənası

«تجويد» "təcvid" lüğətdə "gözəlləşdirmək" mənasınadır. Qiraət istilahında isə "**hərfin əsl sifət və əhkamına** (hərf tənhalıqda heç bir hökmə malik olmur. Bu hökm hərfin Quran kəlmələrində digər hərflərlə

tərkib olunduğu zaman, onlar arasında əmələ gəlir) **riayət etməklə yanaşı öz məxrəcindən tələffüz edilməsidir**".

Buna əsasən təcvid üç hissədən ibarət olur:

1-**Hərflərin məxrəci ilə tanışlıq;**

2-**Hərflərin sifəti ilə tanışlıq;**

3-**Quran kəlmələrində hərflərin əhkamı ilə tanışlıq.**

## Təcvidin faydası

Təcvidin faydası bundan ibarətdir ki, ona riayət etməklə, Quran tilavətində, ilahi kəlam islamın başlanğıcında oxunduğu və eşidildiyi kimi qiraət olunur. Nəticədə ayələrin mənasında dəyişiklik əmələ gəlmir, ilahi kəlam daha gözəl və daha yaxşı tilavət olunur. Buna görə də bu qaydaları **"Quran qiraətinin təcvidi"** adlandırmışlar.

## Ərəb əlifbası

Hər bir hərfin özünə məxsus yazılışı, adı və tələffüzü vardır.

«Qurani-kərimin rəvan oxunuş qaydaları» bəhsində hərflərin yazılış və adları ilə tanış oldunuz. Təcvid bəhsində isə (rəhman Allahın köməkliyi ilə) ərəb hərflərinin tələffüz olunma qaydaları ilə tanış olacaqsınız. Lakin bu qaydaların izahından əvvəl hərflərin yazılış və adları ilə bağlılığı olan bir neçə mətləbi araşdıraq.

## “Əlif”in növləri

Əlif ərəb dilində iki növə bölünür:

1-Hərəkə qəbul edən əlif;

2-Hərəkə qəbul etməyən əlif.

**1-“Hərəkə qəbul edən əlif”** həmin həmzədir ki, kəlmənin əvvəlində əlif surətində yazılaraq fəthə, kəsrə, və zəmmə hərəkələrini qəbul edir.

**Məsələn:** اَحْمَدْ، اِمَامْ، اُكْتُبْ

**2-“Hərəkə qəbul etməyən əlif”** məftuh hərfdən sonra gələrək həmin hərfin fəthəsinin iki dəfə uzadılmış formada tələffüz olunmasına səbəb olur. Buna görə də ona **“əlif məddi”** deyirlər.

**Məsələn:** كَانَ عَلاَمَاتٍ دَعَا

## Ərəb hərflərinin sayı

Ərəb əlifbasını bəziləri 28 və bəziləri 29 hərfdən ibarət olduğunu qəbul edirlər.

İxtilaf **“əlif məddi”-**indədir. Bir dəstə onu müstəqil bir hərf bilirlər. Bəziləri isə bu əqidədədirlər ki, əlif məddi “**vəv məddi”** və “**yə məddi**” kimi bir uzadılmış səs olub, müstəqil hərf deyildir.

## Vəsl həmzəsi və qət həmzəsi

İlk hərfi sakin olan kəlmələri tələffüz etmək çətin və ya qeyri mümkündür. **Məsələn:** «نْصَرْ ، هْبِطْ»

Belə kəlmələrin tələffüzünə imkan yaratmaq üçün «**Vəsl həmzəsi**» adlanan hərəkəli əlifdən istifadə edirlər. Vəsl həmzəsi cümlənin əvvəlində gəldikdə oxunur. İki kəlmənin arasında isə oxunmur.

**Məsələn:** أُدْخُلُوا – يَاقَوْمِ ادْخُلُوا

Vəsl həmzəsinin müqabilində **«qət həmzəsi»** adlanan başqa bir həmzə vardır ki, cümlənin həm başlanğıc və həm də ortasında oxunur.

**Məsələn:** اَرْسَلْنَا – لَقَدْ اَرْسَلْنَا

## Cümlənin əvvəlində gələn vəsl həmzəsinin oxunuş qaydası

Vəsl həmzəsi fel, isim və hərfin başlanğıcında gəlir.

**__Hərfdə:__** Müəyyənlik bildirən «الْ»-ın həmzəsi həmişə məftuh olur.

**Məsələn:**

الْقَمَر ، الشَّمْس yazılır, اَلْقَمَر ، اَلشَّمْس oxunur.

**__İsimlərdə:__** həmişə məksur olur.

**Məsələn:**

ابْن، اسْم yazılır, اِبْن، اِسْم oxunur.

**__Feillərdə:__** Həmzədən sonra gələn ikinci hərfə diqqət yetirilir. Bu hərf:

1. **məftuh** və ya **məksur** olduqda, həmzə **kəsrə** ilə;

2. **məzmum** olduqda isə həmzə **zəmmə** ilə oxunur.

**Məsələn:**

افْتَحْ، اضْرِبْ، انْصُرْ yazılır,

اِفْتَحْ، اِضْرِبْ، اُنْصُرْ oxunur.

**❅Tapşırıq:**

Aşağıdakı kəlmələri hecalayıb oxuyaraq, vəsl həmzəsinin hərəkəsini müəyyən edin:

الرَّحْمٰنُ – اسْتَغْفِرْلَهُمْ – اسْلُكْ يَدَكَ – اتَّخَذُوا اَيْمانَهُمْ – اعْلَمُوا اَنَّ – ٱلَّذِينَ ءَامَنُواْ – اقْتَرَبَتِ السّاعَةُ – اتْلُ ماأُوحِىَ ارْجِعِىإِلى رَبِّكِ – الْاَعْرَابُ اَشَدُّ كُفْرًا – اشْتَرَوْا بِايَاتِ اللهِ انْظُرْ كَيْفَ نُبَيِّنُ – ارْجِعُوا اِلى اَبِيكُمْ – اسْتَحْوَذَ عَلَيْهِمُ الْحَقُّ مِنْ رَبِّكَ – اتَّبِعُوا ماأُنْزِلَ– ادْعُوا رَبَّكُمْ – الْحَمْدُ لِلّٰهِ اسْتِكْبارًافِىالْاَرْضِ– اصْلَوْهَاالْيَوْمَ– الطَّلاقُ مَرَّتانِ– انْفِرُواخِفافًا

**❅Sual və tapşırıqlar❅**

1. Təcvidin tərifini deyin və onun faydasını izah edin.
2. Əlifin neçə növü vardır? Hər biri üçün misal çəkin.
3. «Qət həmzəsi» ilə «vəsl həmzəsi» arasında olan fərqi izah edin. Bunların hər birinə aid misal gətirin.
4. Aşağıdakı kəlmələri hecalayıb oxuyaraq vəsl həmzəsinin hərəkəsini müəyyən edin:

ادْخُلُوا الْجَنَّةَ – اصْبِرْ عَلى مايَقُولُونَ – اعْمَلُوا الَ داوُودَ اسْتَجِيبُوا لِرَبِّكُمْ – اعْدِلُوا هُوَ اَقْرَبُ – ارْكُضْ بِرِجْلِكِ الْاَخِلّآءُ يَوْمَئِذٍ – احْشُرُوا الَّذِينَ ظَلَمُوا – اذْهَبْ إِلى فِرْعَوْنَ انْفِرُوا خِفافًا – ادْفَعْ بِالَّتى هِىَ اَحْسَنُ – ادْعُوهُمْ لِابَآئِهِمْ

## İkinci dərs

## HƏRFLƏRIN TƏLƏFFÜZÜ

Hərfləri düzgün tələffüz etmək üçün onların məxrəc və sifətləri ilə tanış olmaq lazımdır.

Hərfin əmələ gəldiyi və tələffüz olunduğu yerə onun **məxrəci** deyilir

Hərfin əmələ gəldiyi vaxt yaranan keyfiyyət və halətə onun **sifəti** deyilir (**məsələn:** Qalın və nazik, çətin və süstlük...)[1]

## HƏRFLƏRİN MƏXRƏCLƏRİ İLƏ TANIŞLIQ

**Hərfin məxrəci** onun əmələ gəldiyi və tələffüz olunduğu yerdən ibarətdir.

[1] Məxrəҹlər ilə tanışlıq bizə, hərfləri dəqiq surətdə өz məxrəҹlərindən tələffüz etməyə kömək edir. Һərflərdən bəziləri danışıq üzvülərinin eyni bir hissəsindən tələffüz olunduğundan, o hərfləri bir-birlərindən ayırmaq üçün onların sifətləri ilə tanış olmaq lazımdır. **Məsələn** «ت، ط» hərfləri hər ikisi danışıq üzvülərinin eyni bir hissəsində əmələ gəlir və bir yerdən tələffüz olunurlar, lakin birinҹisi nazik surətdə və az həҹmlə lakin, ikinҹisi qalın surətdə və dolu həҹm ilə əda olunur.

Alınmış nəfəs çölə verilən zaman səs tellərindən keçdikdən sonra danışıq üzvlərindən (həlq, ağız, dodaqlar) birində məhdudlaşır. Və beləliklə hərf əmələ gəlir. Döş qəfəslərindən xaric olan havanın hərfə çevrildiyi yeri həmin hərfin məxrəci adlandırırlar.

## Hərflərin məxrəclərinin sayı

Məşhur nəzəriyyəyə əsasən hərflər on yeddi məxrəcdən tələffüz olunur. Danışıq üzvləri bu on yeddi məxrəcə əsasən beş hissəyə bölünür:

1-**Cof hissəsi** (ağız və boğaz boşluğu);

2-**Həlq hissəsi** (boğaz);

3-**Lisan hissəsi** (dil);

4-**Şəfəteyn hissəsi** (dodaqlar);

5-**Xəyşum hissəsi** (burun boşluğu).

## Cof hissəsi

Ağız və boğaz boşluğuna **cof** deyilir. **Cof** mədd hərflərinin xaric olduğu yerdir. Əlbbəttə mədd hərfləri müstəqil olmayıb, hərəkələrin uzadılması nəticəsində əmələ gəlir və onların məxrəci də fərzi olaraq bütün ağız və boğaz fəzasına şamil olur.

## Həlq hissəsi

**Həlq** danışıq üzvülərindən bir hissə olub aşağıdan səs telləri və yuxarıdan dilçəyin olduğu sərhədlə məhdudlaşır. **Həlq** üç məxrəcə malik olub altı hərfin əmələ gəldiyi yerdir.

1-İki (همزه və هاء) hərflərnin məxrəci həlqin nəhayəti və hulqumun (səs tellərinin) olduğu yerdir.

2-İki (عين və حاء) hərflərnin məxrəci həlqin ortasıdır.

3-İki (غين və خاء) hərflərnin məxrəci həlqin ibtidası və həlq ilə ağız arasındakı sərhəddir.

**Qeyd:** Həlqdən tələffüz olunan altı hərfi (همزه هاء عين حاء غين خاء) «**Həlq hərfləri**» adlandırırlar.

## Dil hissəsi

**Dil hissəsi** danışıq üzvülərinin tələffüz yerlərindən ən genişi olub, dilin və damağın müxtəlif hissələrinə şamil olur.

**Dilin müxtəlif hissələri ibarətdir:**

Dilin kökünün nəhayəti «اَقصَااللّسان», dilin ortası «وسط اللّسان», dilin ucu «طرف اللّسان», dilin böyür tərəfi «حافَةُ اللّسان».

**Damağın hissələri ibarətdir:**

**D**ilçək «لهات», yumuşaq damaq (damağın yumşaq hissəsi) «حَنَكُ الْأَعْلى», sərt damaq (damağın bərk hissəsi) «نِطْع», ləsə (diş əti) və dişlər.

Dişlər 32 ədəd olub, iki hissədən — 16 ədəd alt və 16 ədəd üst dişlərdən ibarətdir. Bu dişlər bütünlükdə aşağıdakı hissələrə bölünür:

Hər biri dörd ədəddən ibarət olan **sonaya**, **rəbaiyyat** və **ənyab** dişləri. Yerdə qalan 20 ədəd **əzras** dişləri özü də üç yerə bölünür: 4 ədəd **zəvahik,** 12 ədəd **təvahin** və **nəvaciz** 4 ədəd.

Dil hissəsi 10 məxrəcə malik olub 18 hərfin tələffüz olunduğu yerdən ibarətdir.

1-«قاف », hərfinin məxrəci dilin nəhayəti və dilçəyin ibtidasıdır.

2-«كاف », hərfinin məxrəci dilin axırı ilə dilçəyin nəhayəti və bir qədər yumuşaq damağın bir hissəsi yəni damağın yumuşaq hissəsindən dilçəyin yaxınlığında olan bir qədəridir.

Bu iki «قاف كاف », hərfin əmələ gəlməsində dilçəyin «لهات» əsəri olduğundan, onlara **ləhəvi** hərflər deyirlər.

3-Üç «شين، جيم və mədd hərfi olmayan ياء » hərflərinin məxrəci dilin ortası ilə ağız yuxarısının onun qarşısında olan hissəsidir.

Dilin ortası ilə damağın dilin ortası müqabilində olan hissəsi arasındakı kiçik fasiləyə «شَجْر» «şəcr» deyilir. Buna görə də bu üç hərf «**şəcəri hərflər**» adlanırlar.

4-«ضاد» hərfinin məxrəci dilin böyür tərəfi (sol və ya sağ tərəfdən) ilə həmin tərəfin üst dəyirman (اضراس) dişləridir. (Bu hərfin xaric olması dilin sol tərəfindən daha asandır).

«ضاد» hərfinə «**zersi**» hərfi deyilir.

5-«لام» hərfinin məxrəci dilin ucunun hər iki tərəfdən böyrü ilə dilin həmin hissələrinin müqabilində (qarşısında) olan dişlərin (sonaya, rəbaiyyat, ənyab və zəvahik dişləri) ləsələridir.

6-«نون » hərfinin məxrəci dilin ucu ilə sonaya və rəbaiyyat dişlərinin ləsələri olur.

7-«راء » hərfinin məxrəci dilin ucu və sonaya dişlərinin ləsələri olur.

Bu «نون لام راء » üç hərfi **zəlqi** hərflər adlandırırlar. «ذَلْق» dilin ucunun itiliyinə deyilir.

8-Bu «تاء ،دال ،طاء» üç hərfin məxrəci dilin üst tərəfinin qabaq hissəsi ilə damağın çıxıntısı və sonaya dişlərinin ləsələri olur.

Bu «تاء ،دال ،طاء» üç hərf «نطْع» (damağın çıxıntısı) ilə nisbətdə olduğundan **niti** hərflər adlanırlar.

9-Bu «زاى ،سين ،صاد» üç hərfin məxrəci dilin üst tərəfinin qabaq hissəsi və yuxarı sonaya dişlərinin ləsələri arxasında olan düz hissədir.

«اَسَلَةُ اللسان» adlanan dilin üst tərəfinin qabaq hissəsi bu «صاد، سين، زاى» üç hərfin tələffüzündə iştirak etdiyi üçün onları **əsəli** hərflər adlandırmışlar.

10-Bu «ظاء، ذال، ثاء» üç hərfin məxrəci dilin ucuna yaxın hissəsi ilə yuxarı sonaya dişlərinin baş tərəfi olur.

Bu «ظاء، ذال، ثاء» üç hərfin məxrəci yuxarı sonaya dişlərinin ləsəsinə yaxın olduğu üçün onları **ləsəvi** hərflər adlandırmışlar. Hər halda onların tələffüzündə dilin ucu birbaşa ləsələrə toxunmur.

## Şəfəteyn (dodaqlar) hissəsi

Şəfəteyndə iki məxrəc vardır:

1-«فاء » hərfinin məxrəci aşağı dodaq və yuxarı sonaya dişlərinin ucudur.

2-«باء ، ميم، واو » hərflərinin məxrəci ki, «باء، ميم» iki hərfi dodaqların birləşməsindən və «واو» hərfi dodaqların yığılaraq qönçələşməsindən əmələ gəlir.

**Qeyd:**

Bu «باء، ميم، واو، فاء» dörd hərfin şəfətə (dodaqlara) nisbəti olduğu üçün **şəfəvi** və ya **şəfəti** adalandırırlar.

## Xəyşum hissəsi

Burun boşluğuna «خيشوم» “**xəyşum**” və ondan xaric olan sədaya isə «غُنّه» “**ğunnə**” deyilir.

Xəyşum hissəsi da cof hissəsi kimi əsli olmayıb fəqət iki «نون ،ميم» həflərinin ğunnəsinin xaric olduğu yerdir.

**❈Sual və tapşırıqlar❈**

1. Məşhur nəzəriyyəyə əsasən hərflərin neçə məxrəci var və onlar danışıq üzvülərinin neçə hissəsində qərar tapırlar?
2. Həlqi hərflər neçə məxrəcə malikdir? Onları tərtib ilə həlqin nəhayətindən başlamaqla yazın.
3. Dil hissəsi neçə məxrəcə malikdir və buradan neçə hərf tələffüz olunur?
4. Şəfəteyn hissəsi neçə məxrəcə malikdir və hər məxrəcdən hansı hərflər tələffüz olunur?
5. Xəyşum hissəsini izah edin və buradan hansı hərflərin xaric olduğunu yazın.

**Üçüncü dərs**

## HƏRFLƏRİN SİFƏTLƏRİ İLƏ TANIŞLIQ

Sifət lüğətdə bir şeyin halət və necəliyinə deyilir. İstilahda isə hərfləri tələffüz edən zaman danışıq üzvülərində əmələ gələn necəlik və halətlərə sifət deyilir.

Sifət hərflərin sədasına birbaşa təsir edərək, eyni məxrəcli hərflərin bir-birindən ayırd edilməsinə səbəb olur. Həmçinin digər hərflər də sifət vasitəsi ilə daha gözəl və daha kamil tələffüz olunurlar.

Hərflərin sifəti iki hissədən ibarətdir:

1-**Mütəzad** (biri birinə zidd olan)

2-**Qeyri-mütəzad** (biri birinə zidd olmayan)

### Mütəzad sifətlər

Özünə zidd sifətə malik olan sifətlərə **mütəzad sifətlər** deyilir. Bunlar bütünlükdə on sifətdən ibarətdirlər:

| | |
|---|---|
| 1-**Cəhr** | 2-**Həms** |
| 3-**Şiddət** | 4-**Rixvət** |
| 5-**İstela** | 6-**İstifal** |

7-**İtbaq** 8-**İnfitah**
9-**İsmat** 10-**İzlaq**

**İsmat** və **izlaq** sifətlərinin Quran qiraətində heç bir faydası olmayıb və əlavə izaha da ehtiyacı yoxdur. Beləliklə digər sifətlərin izahını veririk:

**1-Cəhr**: Lüğətdə aşkar olmaq mənasına olub, istilahda isə tələffüz vaxtı səs tellərinin titrəyişi nəticəsində hərfin sədasının aşkar olmasına deyilir.

Əlavə edək ki, cəhr sifətinə malik olan hərfləri tələffüz edən zaman insan nəfəsinin həmin hərflə yanaşı axarı (cərəyan tapmır) olmur.

Bu sifət on səkkiz hərfə malik olub, aşağıdakı kimidirlər:

«ا، ب، ج، د، ذ، ر، ز، ض، ط، ظ، ع، غ، ق، ل، م، ن، و، ى»

**2-Həms**: Cəhr sifətinin ziddi olub lüğətdə məxfi olmaq və sədanın ahəstə olması mənasınadır. İstilahda isə hərfi tələffüz edən zaman səs tellərinin titrəyişinin olmaması nəticəsində sədanın ahəstə olmasına deyilir.

Bu sifətə malik olan hərflər on hərfdən ibarət olub bu kəlmədə cəm olmuşdur:

«فَحَثَّهُ شَخْصٌ سَكَتَ»

**3-Şiddət**: Lüğətdə mənası qüvvət olub, istilahda isə hərfi tələffüz edən zaman hava və ya səda axarının həbs edilməsinə (saxlanılmasına) deyilir. Nəticədə hərfin məxrəcində sot əndamların (danışıq üzvlərinin) bir-birinə kamil toxunması əmələ gəlir.

Şiddət sifətinə 8 hərf malik olub, aşağıdakı ibarətdə cəmlənmişdir:

«اَجَدْتُ طَبَقَكَ»

**4-Rixvət**: Bu sifət şiddət sifətinin ziddi olub lüğəvi mənası süstlük, istilahda isə hərfin tələffüzü zamanı hava və ya sədanın axar (cərəyan) tapması mənasınadır. Nəticədə hərfin məxrəcində sot əndamların (danışıq üzvlərinin) yaxınlaşaraq, bir-birinə toxunmamazlığı əmələ gəlir.

Bu sifətə 15 hərf malikdir:

«ث، ح، خ، ذ، ز، س، ش، ص، ض، ظ، غ، ف، و، ه، ى»

**Qeyd:** «لَمْ نَرَعَ» kəlməsində cəmləşmiş bu beş «ر ، ع، ل، م، ن» hərf şiddət və rixvət sifətləri arasında orta bir vəziyyətdə olub və bunların ikisinin arasındakı halətdədir.

5-**İstela**: Lüğətdə yuxarıya doğru meyl, istilahda isə hərfi tələffüz edən zaman dilin kökünün yuxarı — damağa tərəf meyllənməsi mənasınadır.

Bu sifət danışıq üzvlərinin həcminin genişlənməsinə səbəb olur və nəticədə hərf qalın və dolu həcmlə tələffüz olunur.

İstela hərfləri ibarətdirlər:

«خ، ص، ض، ط، ظ، غ، ق»

**6-İstifal**: Bu sifət istela sifətinin ziddi olub lüğətdə aşağı enmək, istilahda isə hərfi tələffüz edən zaman dilin kökünün aşağı gəlməyliyi mənasınadır.

Bu sifət hərfin nazik və az həcmlə tələffüz olunmsına səbəb olur.

İstela sifətinə malik olan hərflərdən başqa yerdə qalan bütün hərflər istifal sifətinə malikdirlər.

**7-İtbaq**: Lüğətdə iki səthin bir-biri üzərində yapışmaqla qərar tapması, istilahda isə hərfi tələffüz edən zaman ağızın yuxarısı ilə dil səthinin bir hissəsinin bir-birinə yapışmsı mənasınadır.

Bu sifət hərfin istela hərflərindən daha qalın və daha dolu həcmlə əda olunmasına səbəb olur. Bu sifətə malik olan hərflər: «ص، ض، ط، ظ» dir

**8-İnfitah:** Bu itbaq sifətinin ziddi olub lüğətdə açıq və genişlənmək mənasına, istilahda isə dilin səthinin ağızın yuxarısından ayrı və uzaq olmağı və hərfi tələffüz edən zaman onun daha genişlənməsi mənasınadır.

Dörd itbaq hərflərindən başqa yerdə qalan bütün hərflər infitah sifətlərinə malikdirlər.

**❈Sual və tapşırıqlar❈**

1. Hərflərin sifətinin tərifini yazın və sifətin faydasını izah edin.
2. Hansı növ sifətlərə mütəzad sifətlər deyilir və onlar cəmi neçə sifətdən ibarətdir.
3. Cəhr və həms sifətlərini izah edin və həms hərflərini yazın.
4. Şiddət sifətinin tərifini deyin və bu sifətə malik olan hərfləri yazın.
5. İstela sifətinin tərifini deyin və bu sifətə malik olan hərfləri yazın.

6. Aşağıda mötərizə içində verilmiş hərflər hansı müştərək və hansı fərqli sifətlərə malikdirlər?

«ط، ت»، «ظ، ذ»، «ذ، ث»، «ص، س»

## Dördüncü dərs

## QEYRİ-MÜTƏZAD SİFƏTLƏR

Qeyri mütəzad sifətlər on ədəd olub aşağıdakı kimidir:

1-**Səfr:** Bu sifət quşların sədasına oxşayan[1] bir səsə deyilir. Bu səs üç hərfin «ز ،س ،ص» tələffüzü zamanı eşidilərək bu hərflərin məxrəcində hava və ya sədanın sayişi (sürtüşməsi) nəticəsində əmələ gəlir.

2-**Təfəş:** «شين» hərfinin tələffüzü zamanı ağız boşluğunda havanın yayılması mənasınadır.

3-**Nəfs:** Dilin ucundan dəmidən (havanın səsli surətdə xaric olması) mənasınadır. Bu sifət yalnız «ثاء» hərfinə məxsusdur.

**4-Təkrir: «راء»** hərfini tələffüz edən zaman dilin ucunun titrəməsi mənasınadır. Bu sifətə riayət etdikdə diqqət yetirmək lazımdır ki, **«راء»** hərfi təkrar olunacaq dərəcədə həddini keçməsin.

**5-İstitalə:** Hərfin sədasının dilin böyür tərəfinin əvvəlindən axırına qədər çəkilməsi mənasınadır. Bu sifət fəqət «ضاد» hərfinə məxsusdur.

[1] Pıçıltı ilə danışanda uzaqdan fəqət bir neçə hərfin səsi eşidilir.. Məsələn «**s**» hərfinin səsi kimi. (tərc.)

Məxrəcin uzun olmağı səbəb olur ki, səda hərfin məxrəcinin uzunu boyu çəkilsin.

**6-İnhiraf**: Hərfin digər bir hərfin sifət ya məxrəcinə tərəf meyl etməsinə deyilir.

Məlum olduğu kimi «لام راء» hərfləri bəzi vaxtlar qalın və dolu həcmlə və bəzi vaxtlar nazik və az həcmlə əda olunurlar. Buna görə də bu halət bu iki hərfdə əmələ gəlir.

**7-Lin:** Lətif mənasına olub hərfin yumuşaq əda olmasından ibarətdir. Bu sifət iki hərfə: məftuh hərfdən sonra gələn sakin «واو» və sakin «ياء» hərflərinə aiddir.

**8-Ğünnə:** Burun boşluğundan (xəyşumdan) xaric olan səsə deyilir. Bu sifət iki «ميم نون» hərflərinə aiddir. Ğünnənin ən kamil haləti bu iki hərf təşdidli olduğu surətdədir.

**9-Nəbr:** Üstünlük və şərafət mənasına olub همزه hərfinə məxsusdur. Burada məqsəd bu hərfə məxsus olan ağırlıq və itilik halətidir.

همزه hərfinin digər hərflərə nisbətən şrafət və üstünlüyü səbəb olmuşdur ki, bu hərfi «اَثْقَلُ الْحُرُوف» «əsqəlul huruf» adlandıralar.

**10-Qəlqələ: İztirab və qərarsızlıq** mənasına olub, istilahda isə hərfi sükun edən zaman sədasının aşkar edilməsi və azad olunmasına deyilir. Onu da «sədanın partlayışı» kimi təbir edirlər.

Qəlqələ iki — cəhr və şiddət sifətlərinin bir hərfdə cəmləşməsindən əmələ gəlir. Çünki şiddət sifəti nəticəsində hərfin sədası sükun (zatı

olsun ya arizi) halında kamilən həbs olunur. Hərfin məxrəci azad olunana qədər hərf əda olunmayaraq sədası eşidilmir.

Qəlqələ hərfləri «ق، ط، د، ج، ب»-dan ibarətdir ki, bu «قُطْبُ جَدّ» ibarətində cəm olublar.

**Diqqət:** Həmzə hərfinin də cəhr və şiddət sifətləri olmasına baxmayaraq nəbr sifətinə malik olduğundan qəlqələdən ehtiyacsız olur.

**Qeyd:** Kəlmənin axırında vəqf zamanı əmələ gələn qəlqələ kəlmənin ortasında olan qəlqələdən daha aşkar olur. Qəlqələ təşdidli hərfi vəqf edən zaman sakin olarsa, əvvəlki halətindən daha aşkar olacaqdır. Təşdidli olmayan hərflərdə diqqət yetirmək lazımdır ki, qəlqələ təşdidlə tələffüz olunmasın.

❅**Tapşırıq:**

**«ب»:** اَبْكىٰ، اِبْراهيمْ، اُبْسِلُوا، فَاضْرِبْ، جِبْرِيلُ، خُبْراً
مُرِيبٍ «مُريبْ»، تَبَّ «تَبّْ»، اَلْجُبِّ «اَلْجُبّْ»

**«ج»:** اَجْرًا، اِجْرامِى، مُجْرِمُونَ، تَجْرى، رِجْلَيْنِ، فَاخْرُجْ
بَهيجٍ «بَهيجْ»، اَلْبُرُوجِ «اَلْبُرُوجْ»، فِبالْحَجِّ «فِبالْحَجّْ»

**«د»:** اَدْبَرَ، اِدْبارَ، اُدْخُلُوها، لَمْ يَلِدْ وَلَمْ يُولَدْ، يُدْجِلُ
لَكَنُودٌ «لَكَنُودْ»، مِنْ حَديدٍ «مِنْ حَديدْ»، نُمِدُّ «نُمِدّْ»

**«ط»:** اَطْرافِها، اِطْعامٌ، نُطْعِمُ، نَطْمِسَ، وَلاتُشْطِطْ، يُطْعِمُونَ
لُوطٍ «لُوطْ»، مُحيطٌ «مُحيطْ»، بِالْقِسْطِ «بِالْقِسْطْ»

**«ق»:** اَقْدامَنا، اِقْرَا، اُقْسِمُ، خَلَقْنا، مِقْدارُ، مُقْوِينَ

فَواقٍ «فَواقْ»، اَلْحَريقِ «اَلْحَرِيقْ»، بِالْحَقِّ «بِالْحَقّْ»

**❋Sual və tapşırıqlar❋**

1. Səfir sifətinin tərifini deyin və bu sifətə malik olan hərfləri yazın.
2. «ث، ش، ض» hərfləri qeyri mütəzad sifətlərdən hansına malikdir?
3. Lin sifətinin tərifini deyin və bu sifətə malik olan hərfləri bir neçə misal gətirməklə yazın.
4. Ğünnənin tərfini deyin və ğünnə sifətinə malik olan hərfləri yazın.
5. Qəlqələnin lüğəvi və istilahi mənalarını yazın.
6. Qəlqələ sifətinə malik olan hərfləri misal gətirməklə qeyd edin.
7. «مزّمّل» surəsini oxuyun və qəlqələ hərfləri olan kəlmələri göstərin.

**Beşinci dərs**

## OXŞAR SƏSLİ HƏRFLƏRİN FƏRQLƏRİ

ƒ1♣

Keçən dərslərimizdə hərflərin məxrəc və sifətləri ilə nəzəri surətdə tanış olduq.

Gördüyünüz kimi ərəb hərflərinin bir çoxu eyni Azərbaycan hərfləri kimi tələffüz olunur və onları çoxlu məşq etməyə ehtiyac yoxdur. Fəqət ərəb dilində olan bu

«ثاء، حاء، ذال، صاد، ضاد، طاء، ظاء، عين، قاف، واو»

on hərfin tələffüzü bizim dilimizdə olmayıb digər bir formadadır. Bunları yaxşı öyrənmək üçün özlərinə oxşar olan hərflərlə müqayisə edərək, Quran kəlmələri üzərində məşq edək.

### «همزه» və «عين» hərflərinin bir-birindən fərqi

«همزه» hərfi həlqin nəhayətində hülqumdan əda olunur. Onu tələffüz edən zaman səs telləri bir-birlərinə yapışır ki, sükun halında hərfin

sədası qət olur (kəsilir). «عين» hərfi isə həlqin ortasında əda olunur. Onu tələffüz edən zaman həlqin divarları yığılır və sükun halətində hərfin sədası bir miqdar uzadılmış olur.

**Məsələn:**

| | |
|---|---|
| تَأْلَمُونَ | تَعْلَمُونَ |
| اَجَلْ | عَجَلْ |
| اَمَلاً | عَمَلاً |
| اَمينْ | عَمينْ |

اَعْلى – نِعْمَ – يُعْجِبُكَ – نَعْبُدُ – اِعْلَمُوا – يَسْتَعْجِلُونَ – عَبَسَ – مَعَكُمْ– عَلَيْهِمْ – مَعايِشَ – عالِيَهُمْ – عالَمينَ – عِبادُ – عِلْمًا – فاعِلُونَ – عيسى – نُعيدُها – فَاَعينُونى – عُلَمآءُ – لِلعُسْرى – تَعُولُوا – يَعُودُونَ – عُوقِبْتُمْ – فَعّالُ – سُعِّرَتْ – يَدُعُّ الْيَتيمَ – لا اَعْبُدُ ما تَعْبُدُونَ

## «حاء» və «هاء» hərflərinin bir-birindən fərqi

«هاء» hərfinin tələffüzü eyni Azərbaycan dilində olan «**h**» hərfi kimidir. Bu hərf hülqumdan və həlqin nəhayətində əda olunur. Onu tələffüz edən zaman səs telləri arasında hava məhdudlaşır və sadə şəkildə əda olunur. «حاء» hərfi isə həlqin ortasında əda olunur. Onu tələffüz edən zaman həlqin divarları bir qədər təzyiqə məruz qalır. Və bu hərf bir qədər özünəməxsus tutqunluqla əda olunur.

**Məsələn:**

اَهْوى          اَحْوى

اُهِلَّ          اُحِلَّ

اَحْيا – اِحْتَرَقَتْ – يُحْيى – مَحْياهُمْ – اَلْمِحْرابَ – تَحْتِهِمْ – حَرَّمَها – حَسيسَها – اَلْحَمْدُ – يُحاسِبْكُمْ –
دَحٰيها – مَحارِيبُ – رَحِمَ – تَحِيَّتُهُمْ – حِسابُهُمْ – حيتَانُهُمْ – يَحِيقُ – نُوحِيها – حُلُّوا – حُرِّمَتْ – حُنَفَآءَ –
مُفْلِحُونَ – يَحُولُ – يُسَبِّحُونَ – زُحْزِحَ – اَلرَّحْمٰنِ الرَّحيمِ – وَنَحْنُ نُسَبِّحُ بِحَمْدِكَ

### «قاف» ilə bizim dilimizdə olan «q» hərfi arasında olan fərq

«قاف» hərfinin tələffüzündə dilin nəhayəti dilçəyin başlanğıcına birləşərək birdən ondan ayrılır. Buna görə də bu hərfin sədası partlayıcı vəziyyətdə olur. Lakin bizim dilimizdə olan «**q**» hərfi sadə surətdə dilin nəhayəti yumuşaq damağa yapışıb-ayrılmaqla əmələ gəlir.

**Məsələn:**

اَقْنٰى          قَدْ

لِلْمُتَّقِينَ – مُسْتَقِيمَ – يُقِيمُونَ – رَزَقْنَٰهُمْ – يُنْفِقُونَ – قَبْلِكَ – يُقِنُون – يَقُولُ – قُلُوبِهِمْ – قِيلَ – قَدِيرٌ –
قَامُواْ – بَرْقٌ – تَتَّقُونَ – صَٰدِقِينَ – وَقُودُهَا – حَقُّ – فَقَالَ – نُقَدِّسُ – قُلْنَا – أَقُلْ – تَقْرَبَا – فَٰسِقِينَ –
يَنقُضُونَ – يَقْطَعُونَ – خَلَقَ – تَعْقِلُونَ – أَقِيمُو – مُلَٰقُوا – يُقْبَلُ – لِقَوْمِهِ – يَٰقَوْمِ

### ❋Sual və tapşırıqlar❋

1. «عين» və «همزه» hərflərinin tələffüzləri arasındakı fərqi izah edin.

2. «حاء» hərfi necə tələffüz olunur? Misal gətirməklə aydınlaşdırın.
3. «قاف» və «**q**» hərflərinin tələffüzü qaydasını izah edin.
4. Bizim bu dərsimizdə olan hər bir hərf üçün Qurandan on kəlmə misal seçərək yazın.
5. «معارج» surəsini oxuyaraq «عين» «حاء» və «هاء» həriflərinin tələffüzünə diqqət edin.

**<u>Altıncı dərs</u>**

## OXŞAR SƏSLİ HƏRFLƏRİN FƏRQLƏRİ

*f*2♣

### «سين» və «ثاء» hərflərinin fərqi

«سين» hərfi Azərbaycan dilində olan «**s**» hərfi kimi tələffüz olunur. Bu hərfin tələffüzündə dilin üst tərəfinin qabaq hissəsi yuxarı sonaya dişlərinin ləsələrinə yaxınlaşır. Bu hərf səfr sifətinə malikdir. «ثاء» hərfi isə dilin ucunun yuxarı sonaya dişlərinin ucuna yapışmasıyla dəmidəgi (havanın səsli surətdə xaric olması) surətdə «نَفْث» əda olunur.

**Məsələn:**

اِسْمَ      اِثْمَ

يَلْبَسُونَ      يَلْبَثُونَ

مَثْواكُمْ – فَاثْبُتُوا – يَثْرِبَ – مِثْلَهُمْ – مُثْقَلُونَ – مَثْنى . ثَمُودُ – ثَلاثَ – ثُقُلَتْ . مِنَ الْمَثانى – ثامِنُهُمْ –
فَاَثابَكُمْ – ثِيابَهُمْ – مَوْثِقًا – جاثِيَةً – كَثيرًا. جِثِيًّا – حَثيثًا – ثُمَّ – ثُبُورًا – ثُلُثُ – لَمَثُوبَةٌ – ثَلاثُونَ – مَبْثُوثَةٌ
– اَلثَّقَلانِ – اَلثِّقالَ – مُنْبَثًّا – ياَايُّهَا الْمُدَّثِّرُ – ثالِثُ ثَلاثَةٍ

## «سين» və «صاد» hərflərinin fərqi

Əvvəlcədən deyildiyi kimi bu iki hərf dil səthinin qabaq hissəsinin yuxarı sonaya dişlərinin ləsəsinə yaxınlaşması nəticəsində əmələ gəlir və bu iki hərfin bir-birindən olan fərqi aşağıdakı tərtiblədir:

«سين» hərfi **infitah** və **istifal** hərflərindəndir. Onu tələffüz edən zaman dilin üst tərəfi damaqdan uzaqlaşır və dilin kökü aşağıya doğru meyillənmiş olur. Nəticədə nazik surətdə və az həcmlə əda olunur. «صاد» hərfi isə **itbaq** və **istela** hərflərindən olub, tələffüz zamanı dil səthinin ağızın tavanı ilə intibaqı[1] və dilin kökünün damağa meyl etməsi nəticəsində qalın surətdə və dolu həcmlə əda olunur. Hər iki «سين» və «صاد» hərfləri səfr sifətinə malik olub bu cəhətdən heç bir fərqləri yoxdur.

**Məsələn:**

| | |
|---|---|
| عَسٰى | عَصٰى |
| عَسَيْتُمْ | عَصَيْتُمْ |
| قَسَمْنا | قَصَمْنا |

اَصْلَحَ – اَصْدَقَ – اِصْلاحِها . مِصْرَ – تُصْعِدُونَ – يُصْرَفْ – صَلاتى – قَصَصَ – صَدَقَ – مَصانِعَ –

لَصادِقٌ – صالِحينَ – صِراطى – يَفْصِلُ – اَبْصِرْهُمْ – نَصِيبًا – مَصيرَكُمْ – يُوصيكُمْ – صُرِفَتْ –

---

[1] **İntibaq** iki səthin bir-biri üzərində kamil yerləşməsinə deyilir.

صُحُفِ – تَخاصُمُ – نَصُوحًا . تُوصُونَ – تَصُومُوا – فَصَّلْناهُ – فَالصّالِحاتُ – نُفَصِّلُ – يَخْتَصُّ – يَصَّدَّقُوا

**«تاء » və «طاء » hərflərinin fərqi**

«تاء» hərfi eyni bizim dilimizdə olan «**t**» hərfi kimi tələffüz olunur.

«تاء» və «طاء» hərflərinin hər ikisi dil səthinin qabaq hisəsinin yuxarı damağın çıxıntısı və yuxarı sonaya dişlərinin ləsəsi ilə birləşməsi nəticəsində tələffüz olunur. Onların bir-birindən fərqi aşağıdakı tərtiblədir:

«تاء» hərfi **infitah** və **istifal** hərflərindəndir. Onun tələffüzü zamanı dilin səthi damaqdan uzaqlaşır və dilin kökü aşağıya doğru meyillənmiş olur. Nəticədə nazik və az həcmlə tələffüz olunur. «طاء» hərfi isə **itbaq** və **istela** hərflərindən olub, dil səthinin ağızın tavanı ilə intibaqı (bir-birinin üzərində tam şəkildə oturması) və dilin kökünün yuxarı — damağa doğru meyillənməsi nəticəsində qalın və dolu həcmli surətdə əda olunur.

Qeyd etmək lazımdır ki, «طاء» hərfi cəhr sifətinə malik olub, aşkar və hündür sədaya malikdir.

**Məsələn:**

تابَ        طابَ

قانِتينَ          قانِطينَ

اَطْغٰى – تَطْغَوْا – فِطْرَةَ – خِطْبَةِ – مُطْمَئِنّينَ – يُطْعِمُونَ – فَطَرَ – طَفِقَ – اِسْتَطَعْتُمْ – طآئِفَتانِ –
اَطاعُونا . بَطآئِنُها – وَلاتُطِعْ – سُطِحَتْ – طِفْلاً – اَساطيرُ – اَطيعُونِ – خَطِيَّاتِكُمْ – طُمِسَتْ – خُطُوَاتِ
– طُغْيَانًا – طُوبٰى – يَطُوفُ – بُطُونِهِمْ – وَلاتُشْطِطْ – تَخُطُّهُ – لِلطّاغينَ – تَطَّلِعُ – فَاطَّهَّرُوا – عُطِّلَتْ

## Ərəb dilində olan «واو» hərfinin bizim dilimizdə olan «v» hərfindən fərqi

Bizim dilimizdə olan «**v**» hərfi aşağı dodağın yuxarı sonaya dişlərinin ucu ilə birləşməsindən əmələ gəlir. Lakin ərəb dilində olan «واو» hərfi dodaqlar dişlərə toxunmadan dairəvi şəkil alaraq və bir qədər yığılmış vəziyyətdə olduğu halda əmələ gəlir. Bu hərf iki dodağın arasında tələffüz olunur.

**Məsələn:**

بَلَوْنَاهُمْ – اَوْجَفْتُمْ – تَوْبَتُهُمْ – لاتَوْجَلْ – قَوْمى – يَوْمِهِمْ – وَجَدَها – يَاوَيْلَنَا – وَجْهَهَا – وَارِدُهَا – وَارِدَهُمْ
– وَالِدَتِى – وِزْرَ اُخْرٰى – شَاوِرْهُمْ – تُوَسْوِسُ – تَاْوِيلُ – تُؤْوِى – تَسْتَوِى – وُفِّيَتْ – وُجُوهَكُمْ – وُجْدِكُمْ –
تَلْوُوا – دٰاوُودَ – وُورِىَ – اَوَّلِينَ – اَوَّابِينَ – اَوِّبِى – فَسَوّٰى – لَوَّوْا – زُوِّجَتْ

## ⎈Sual və tapşırıqlar⎈

1. «ثاء» hərfinin tələffüz qaydasını misal gətirməklə izah edin.

2. «سين» və «صاد» hərflərinin tələffüzü arasında olan fərqləri misal gətirməklə izah edin.
3. «طاء» və «تاء» hərflərinin tələffüzləri fərqini misal gətirməklə yazın.
4. «واو» hərfinin tələffüz qaydasını misal gətirməklə aydınlaşdırın.
5. Bu dərsimizdə olan hər bir hərf üçün Qurandan on misal seçin və yazın.
6. «مدّثّر» surəsini tilavət edin və «ثاء» «صاد» «طاء» «واو» hərflərinin tələffüzünə diqqət yetirin.

## Yeddinci dərs

# OXŞAR SƏSLİ HƏRFLƏRİN FƏRQLƏRİ

*f*3♣

### «زاء» və «ذال» hərflərinin bir-birindən fərqi

«زاء» hərfi bizim Azərbaycan dilində olan «**z**» hərfi kimi tələffüz olunur.

«زاء» hərfi dilin səthinin qabaq hissəsi və yuxarı sonaya dişlərinin ləsəsindən tələffüz olunur. «ذال» hərfi isə dilin uc tərəfinə yaxın hissənin yuxarı sonaya dişlərinin ucu ilə toxunması nəticəsində nazik və az həcmli surətdə tələffüz olunur.

Qeyd etmək lazımdır ki, «ذال» hərfi «ثاء» hərfi ilə eyni məxrəcdən tələffüz olunub, bu iki hərf arasındakı fərq «ذال» hərfinin cəhr və «ثاء» hərfinin həms sifətinə malik olmasıdır.

**Məsələn:**

اَذْهَبَ – وَاذْكُرُوا – حِذْرَكُمْ – اِذْقَالَ – يُذْهِبْكُمْ – عُذْراً – ذَكِّرْهُمْ – ذَهَبُوا – مُذَبْذَبِينَ – ذَآئِقُوا – ذَالِكُمْ –
اَذَاعُوا – تُذِلُّ – ذِكْرٰيهَا – لِذِىالْقُرْبٰى – اَلَّذِينَ – مَعَاذِيرَهُ لِيُذِيقَهُمْ – نُذُرِ . ذُلِّلَتْ . ذُنُوبَنَا – خُذُوهُ – ذُوقُوا –
نُذُورَهُمْ – تُكَذِّبَانِ – اَلذُّنُوبِ – فَاَذَّنَ مُؤَذِّنٌ – وَلاتُبَذِّرْ تَبْذِيراً – لِيَذَّكَّرُوا

## «زاء» və «ظاء» hərflərinin bir-biri ilə fərqi

Biz «ظاء» hərfini eyni «زای» kimi tələffüz edirik. Ərəb dilində isə «ذال» hərfi kimi dilin ucunun ətrafı ilə yuxarı sonaya dişlərinin ucunun toxunmasından əda olunur. Bu iki hərf arasında olan fərq bundan ibarətdir ki, «ذال» hərfi nazik surətədə və az həcmlə «ظاء» hərfi isə dilin səthinin ağızın yuxarısı ilə intibaqı (bir-birinin üzərində kamil oturması) nəticəsində və dilin kökünün yuxarı gəlməyliyi ilə qalın və dolu həcmli surətdə əda olunur.

**Məsələn:**

مُنْذَرِينَ        مُنْظَرِينَ

مَحْذُوراً        مَحْظُوراً

اَظْلَمَ – يَظْلِمُونَ –– يُظْهِرَ – حَفِظْنَاهَا – وَاغْلُظْ – مُظْلِمُونَ – ظَلَمُوا – ظَهَرَ – ظَلَّتْ – يُظَاهِرُوا –
ظَالِمِى – لَظَالِمُونَ – ظِلالُهَا – ظِهْرِيًّا – مَحْفُوظٍ – كَظِيمُ – حَافِظِينَ – عَظِيمٌ – ظُلِمُوا – يَظُنُّ –
ظُلُمَاتٍ – تُوعَظُونَ – وَاحْفَظُوا – حَافِظُونَ – يُعَظِّمْ – فَظًّا – حَظٍّ – اِنَّ الظَّنَّ – هُمُ الظَّالِمُونَ – اِلَى
الظِّلِّ

## «زاء» və «ضاد» hərflərinin bir-birindən fərqi

«ضاد» hərfinin tələffüzü «زاء» hərfindən fərqlidir. «زاء» hərfi bizim dildə olan **«z»** hərfi kimi tələffüz olunur. «ضاد» hərfi isə dilin böyür tərəfinin yuxarı dəyirman (izras) dişlərinə toxunması nəticəsində əda olunur.

«ضاد» hərfinin tələffüzündə iki xüsusiyyət vardır:

1. «ضاد» hərfi itbaq və istela sifətlərinə malik olub, onun tələffüzü zamanı dilin səthi ağızın yuxarısı ilə müntəbiq (bir-birinin üzərində kamil oturmuş) olur və dilin kökü yuxarıya doğru meyillənir. Nəticədə bu hərf qalın surətdə və dolu həcmlə deyilmiş olur.
2. Tələffüz edilən zaman «ضاد» hərfinin sədası, istitalə sifətinə malik olduğu üçün dilin böyür tərəfinin ibtida və nəhayəti arasındakı fasilə ilə izras dişlərindən çəkilmiş olur. Buna görə də «ضاد» hərfini tələffüz edən zaman «ذال» hərfi kimi qalın surətdə tələffüz olunmasın deyə, diqqət yetirmək lazımdır ki, dil dişlərdən tədricən ayrılsın. Bundan başqa hər bir halda səda qəlqələyə oxşar surətdə əmələ gəlir.

**Qeyd:** Hər iki «ضاد» və «ذال» hərfləri itbaq və istela sifətlərinə malik olub, qalın surətdə və dolu həcmlə əda olunurlar. Bu oxşarlıq üzündən

diqqət yetirmək lazımdır ki, hər bir hərf düzgün və öz məxrəcindən tələffüz olunsun və bir-birlərindən fərqləndirilsin.[1]

**Məsələn:**

| | |
|---|---|
| فَضَلُّوا | فَظَلُّوا |
| نَضْرَةً | نَظْرَةً |
| ناضِرَةٌ | ناظِرَةٌ |

اَضْعَفُ – يَضْرِبْنَ – رِضْوانٌ – فَضْلٌ – مُضْغَةَ – مُضْعِفُونَ – ضَلَّ – وَضَعَهَا – ضَرَبَ – ضَاحِكَةٌ
– لَضَآلُّونَ – ضَامِرٍ – نَضِجَتْ – فِىالْاَرْضِ – ضِعَافًا – ضِيزٰى – رَضِيتُ – مُعْرِضِينَ – ضُرِبَتْ –
وَاغْضُضْ – عَرْضُهَا – مَغْضُوبِ – مَخْضُودٍ – رَضُوا – يَنْفَضُّوا – نَضَّاخَتَانِ – فِضَّةٌ – يَحُضُّ –
يَغُضُّوا – عَضُّوا – اَنْقَضَ ظَهْرَكَ – بَعْضَ الظَّنِّ – يَعَضُّ الظَّالِمُ

## ❋Sual və tapşırıqlar❋

1. «ذال» hərfinin tələffüz qaydasını misal gətirməklə izah edin.
2. «ضاد» hərfi «ذال» hərfi ilə tələffüzdə hansı fərqlərə malikdir? Misal gətirin.
3. «ضاد» hərfinin əda olunma qaydasını misal gətirməklə izah edin.
4. Bu dərsimizdə keçdiyimiz hər bir hərf üçün Qurandan on misal seçin və yazın.

---

[1] Əməliyyə risalələrinin 1000-ci məsələlərində buna misal olaraq qeyd edilmişdir ki, bilərəkdən «ضاد» və «ذال» hərfləri bir-birinin yerində əda olunsa namaz batil olar.

5. «ملك» surəsini oxuyaraq «ضاد» «زاء » və «ذال» hərflərinin tələffüzünə diqqət yetirin.

## Səkkizinci dərs

# TƏFXİM VƏ TƏRQİQ

$f_1$♣

### Təfxim (qalın) və tərqiq (nazik)

«تفخيم» "təfxim" lüğətdə «böyütmək» mənasına olub istilahda isə hərfi ağız onun sədası ilə dolmaqla, qalın və dolu həcmlə əda etmək mənasınadır.

«ترقيق» "tərqiq" (təfximin ziddi) lüğətdə mənası «nazik etmək və durultmaq» olub, istilahda isə hərfin sədasını nazik və az həcmlə əda etməkdən ibarətdir.

### Təfximin əmələ gəldiyi yerlər

İstela hərfləri istisna olmadan hamısı təfxim olunur.

İtbaq hərfləri «ظ –ط –ض –ص» isə daha çox təfximə məruz qalırlar.

Qeyd etmək lazımdır ki, müxtəlif halətlərdə istela hərflərinin təfximi də müxtəlif olur. Təfxim, məftuh hərfdə daha çox, sakin və məzmum hərfdə orta vəziyyətdə, məksur hərfdə isə az əmələ gəlir.

### Tərqiqin əmələ gəldiyi yerlər

İki «راء» və «لام» hərflərindən başqa istifal hərfləri hamısı tərqiq olunurlar. Bu iki hərf bəzi hallarda təfxim olur. Bunların hər birinin hökmünü aydınlaşdıracağıq.

Qeyd etmək lazımdır ki, əlif məddi özündən əvvəlki hərfə tabedir. Hərf təfxim olunduqda, ondan sonra gələn əlif məddi də təfxim, hərf tərqiq olunduqda isə ondan sonra gələn əlif məddi də tərqiq olunur.

❁**Tapşırıq:**

Aşağıda təfximin mərhələləri əsasında seçilmiş kəlmələrin tələffüzünə diqqət yetirin:

**«خ»**: يَخَافَا – فَخَانَتَاهُمَا – خَالاتِكُمْ – خَفَّتْ – خَسَفْنا – خُلِقَتْ – خُذُوهُمْ – اَخْبَارِهَا – خِفْتُمْ – ءَاخِرِينَ – اَخى

**«غ»**: اَلْغَافِلاتُ – فِبالْغارِ – وَالْمَغَارِبُ – غَيْرِى – غَنِمْتُمْ – غُلِبَتْ – يَنْزَغُ – نَغْفِرْ – اَفْرِغْ

**«ق»**: قَاتِلُوا – قَاسَمَهُمَا – قَادِرُونَ – قَبْلَكَ – قَدِّمُوا – قُلْنَ – قُرِئَ – لاتَقْنَطُوا – يَقْبَلُ – بِالْقِسْطِ – نُقِرُّ

**«ص»**: اَصَابَهَا – مِنَ الصّالِحَاتِ – اَصَابِعَهُمْ – صَدْرِى – صَدَقُوا – تَصُدُّونَا – صُرِفَتْ – اَصْحَابُ – تَصْبِرُ – يَصِدُّونَ – تُصِبْهُمْ

**«ض»:** قَضٰيهَا – يُضَاعِفْهَا – اَضَآءَ – اَضَلّوا – ضَرَبُوا – ضُحٰيهَا – يَضُرُّهُمْ – يَسْتَضْعِفْ – يُضْلِلْ – نَضِجَتْ – فِى الْاَرْضِ

**«ط»:** اَطَاعُونَا – يُطَافُ – طَآئِفَتَيْنِ – طَيِّبَاتُ – طَفِقَ – خَلَطُوا – طُوبٰى – تَطْغَوْا– يَطْمَعُ – لاتُطِعْ – سُطِحَتْ

**«ظ»:** ظَالِمُونَ – تَظَاهَرَا – ظَالِمِى – حَفِظَ – ظَهْرَكَ – يَظُنُّ – ظُلِمُوا – يُظْهِرَ – اَظْلَمَ – ظِلالُهَا – يُعَظِّمْ

## Lam hərfinin təğliz və tərqiq olunması

«تغليظ» "**təğliz**" təfxim sözü ilə eyni mənaya malik olub fəqət «لام» hərfi üçün işlədilir. Əslində «لام» hərfi tələffüzdə tərqiq olunur. Onun təğlizi fəqət Ləfzi Cəlalə «الله» kəlməsində ondan əvvəl məftuh ya məzmum hərf gəldikdə olur.

Ləfzi cəlalədən «الله» əvvəl məksur hərf gəldikdə «لام» hərfi tərqiq olunur.

❁**Tapşırıq:**

فَاللهُ – هُوَاللهُ – اِنَّ اللهَ – يَتَوَلَّ اللهَ – عَلَى اللهِ – حِزْبَ اللهِ – رَزَقَكُمُ اللهُ – يُبَيِّنُ اللهُ – اَخَافُ اللهَ – اِتَّقُوا اللهَ – يَدُ اللهِ – عَبْدُ اللهِ – يُرِدِ اللهُ – يَاْتِى اللهُ – يَسْتَغْفِرِاللهَ – يَجِدِ – اللهَ بِسْمِ اللهِ – لِلّهِ

### ❋Sual və tapşırıqlar❋

1. Təfxim və tərqiqin tərifini yazın.
2. Həmişə təfxim surətində əda olunan hərflər hansılardır?
3. Təğliz sözünün mənası nədir və hansı hərf üçün işlədilmişdir.
4. «لام» hərfində təğliz və tərqiqin əmələ gəldiyi yerləri misal gətirməklə qeyd edin.
5. «جمعه» və «منافقون» surələrini tilavət edin və Ləfzi Cəlalə «الله» kəlməsində «لام» hərfinin hökmünü aydınlaşdırın.
6. Yuxarıda adı çəkilən iki surədə istela hərflərinin təfxim rütbələrini (mərtəbələrini) müəyyənləşdirin.

**Doqquzuncu dərs**

## TƏFXİM VƏ TƏRQİQ

ƒ2♣

### «راء» hərfinin tərqiq və təfxim olunması

**Fəthə** və **zəmmə** «راء» hərfinin təfxim, **kəsrə** isə tərqiq olunmasına səbəb olur.

«راء» hərfin təfxim etdikdə dilin ucu yuxarıya doğru, tərqiq etdikdə isə dilin ucu aşağıya doğru meyillənmiş olur.

### «راء» hərfinin tərqiq və təfxim olunduğu yerlər

**1-Hərəkəli «راء»:**

Məftuh və məzmum olan «راء» hərfi təfxim olunur. **Məsələn:**

رَدِفَ – قُدِرَ – مِرَّةٍ – مِرَارًا – خَرَّاصُونَ – بَشَرًا – رُزِقَ – تَذَرُ – تَبَرُّجَ – رُوحُ – يَخِرُّونَ – غَفُورٌ

Məksur olan «راء » hərfi tərqiq olunur.

**Məsələn:**

رِزْقًا – نُذُرِ – سَرِيعٌ – بُرِّزَتْ – ذِكْرٍ – اَنْذِرِ النَّاسَ

**2-Özündən əvvəlki hərf hərəkəli olan sakin «راء» hərfi**

«راء » hərfi sakin, özündən əvvəlki hərf məftuh və məzmum olduqda təfxim olunur.

**Məsələn:**

مَرْعٰى – بِحَرْبٍ – اَخَّرْتَنَا – بَشَّرْنَاكَ – نَهَرٍ «نَهَرْ»
اُرْسِلَ – فَاهْجُرْ –يَطْهُرْنَ – بِالْعُرْوَةِ – حُمُرٌ «حُمُرْ»

«راء » hərfi sakin və özündən əvvəlki hərf məksur olduqda tərqiq olunur.

**Məsələn:**

مِرْيَةٍ – اُحْصِرْتُمْ – فَاَنْذِرْ – بَشِّرْهُمْ – قُدِرَ «قُدِرْ»

**Qeyd:** Sakin «راء » hərfi vəsl həmzəsindən sonra gələrsə, özündən əvvəlki hərf kəsrə olduqda belə təfxim olunur.

**Məsələn:**

لِمَنِ ٱرْتَضٰى رَبِّ ٱرْجِعُونِى – اِنِ ٱرْتَبْتُمْ – اَمِ ٱرْتَابُوا

Sakin «راء » hərfi istela hərfləri ilə bir kəlmədə olub, ondan əvvəl gələrsə, bu sakin «راء» hərfindən qabaqkı hərf kəsrə olduqda belə təfxim olunur.

**Məsələn:**

قِرْطَاسٍ – مِرْصَادًا – اِرْصَادًا – فِرْقَةٍ – لَبِالْمِرْصَادِ

### 3-Özündən əvvəlki hərf sakin və ondan əvvəlki hərf mütəhhrik olan sakin «راء» hərfi

Sakin «راء » hərfindən əvvəlki hərf sakin və ondan əvvəlki hərf məftuh ya məzmum olduqda bu sakin «راء» təfxim olunur (bu halət vəqf zamanı əmələ gəlir).

**Məsələn:**

وَالْفَجْرِ «وَالْفَجْرْ» – وَالْعَصْرِ «وَالْعَصْرْ» – فِى الْغَارِ «فِى الْغَارْ»[1] لَفِى خُسْرٍ «لَفِى خُسْرْ» – عُسْرٍ «عُسْرْ» – شَكُورٌ «شَكُورْ»[2]

**Qeyd:** Yuxarıda dediyimiz halda sakin «راء» hərfindən qabaqkı «ياء» hərfi sakin olarsa, bu iki sakin hərfdən qabaqkı hərf məftuh olduqda belə bu sakin «راء » tərqiq olunur.

---

[1]-[2] Mədd hərfləri öz-özlüyündə sakin olduqları üçün **əlif məddi** — sakin əlif özündən əvvəlki hərf məftuh; **yə məddi** — sakin yə hərfi özündən əvvəlki hərf məksur; **vəv məddi** — sakin vəv hərfi özündən əvvəlki hərf məzmum hesablanır.

**Məsələn:** Vəqf halətində olan طَيْرْ ، سَيْرْ ، خَيْرْ kəlmələri.

Habelə والفجر surəsinin «يَسْرْ» kəlməsində sakin «راء » hərfi vəqf zamanı tərqiq olunur. Çünki bu kəlmə həqiqətdə (əslində) «يَسْرِى» idi və «ياء» hərfi ayələrin həmahəngliyi üzündən həzf olunmuşdur. Bu həzf olunmuş «ياء» hərfinə «راء» hərfinin kəsrəsi dəlalət edir.

Sakin «راء » hərfindən əvvəlki hərf sakin, ondan əvvəlki hərf məksur olduqda bu «راء» hərfi tərqiq olunur (bu halət vəqf zamanı əmələ gəlir). «مِصْرْ» kəlməsi bu halətdən istisna olunmuşdur.

**Məsələn:**

سِحْرٌ «سِحْرْ» – ذِكْرٌ «ذِكْرْ» – خَبِيرٌ «خَبِيرْ»

❋**Tapşırıq:** Aşağıdakı kəlmələrdə «راء» hərfinin təfxim və tərqiq olunan halətlərini müəyyənləşdirin.

فِبالْاَرْضِ – حَرّضِ الْمُؤْمِنِينَ – عِشْرُونَ – صَابِرَةٌ – مَعَ الصَّابِرِينَ – اَسْرٰى – غَفُورٌ رَحِيمٌ – خَيْرًا – يَغْفِرْ لَكُمْ – وَلاتُصَعِّرْ خَدَّكَ – بِاِخْرَاجِ الرَّسُولِ – فَاصْبِرْ صَبْرًا – اَرْسَلْنَا – بِنَصْرِهِ

❋**Sual və tapşırıqlar**❋

1. «راء» hərfinin təfxim olunma yerlərini misal gətirməklə hər bir halət üçün müəyyənləşdirin.

2. «راء» hərfinin tərqiq olunan yerlərini misal gətirməklə hər bir halət üçün izah edin.
3. «راء» hərfinin tərqiq və təfxim olunma yerlərini aşağıdakı kəlmələrdə müəyyənləşdirin.
   حَرِّقُوهُ – مِرْصَادِ – رِزْقٌ – اِرْبَةٍ – فِرْعَوْنَ – فَاصْبِرْ – اِنِ ٱرْتَبْتُمْ – كَرِيمٍ – مِرْيَةٍ – فِرْقَةٌ – ذُكِّرْتُمْ
   – خَيْرْ
4. «قمر» surəsini oxuyun. Bu surədə ayələrin sonunda gələn kəlmələrin axırında olan «راء» hərfinin vəsl və vəqf halətində hökmünü müəyyənləşdirin.

**Onuncu dərs**

## İDĞAM

### İdğamın mənası

***İdğam*** lüğətdə daxil etmək mənasınadır. İstilahda isə «**Bir hərfi digər bir hərfə birinci hərf tələffüz olunmayıb, əvvəzində ikinci hərf şiddətlə əda olunmaqla daxil etmək**» mənasınadır.

**Məsələn:** «قَدْ دَخَلُوا» ibarətində «قَدْ» kəlməsinin «د» hərfi «دَخَلُوا» kəlməsinin «د» hərfində idğam olur və onu «قَدَّخَلُوا»oxuyuruq.

**Qeyd:** Birinci hərfə «مُدْغَم» "**mudğəm**" və ikinici hərfə «مُدْغَمٌ فِيه» "**mudğəmunfih**" deyirlər.

### İdğamın faydası

İdğamın faydası tələffüzdə asanlıq əmələ gətirməkdən ibarətdir.

Hər hansı bir hərfi bir dəfə tələffüz edib, onun ardınca fasiləsiz olaraq həmin hərf və ya o hərfin həmcinsi təkrar olunsa bu halət danışıq üzvüləri üçün ağır olacaqdır.

İdağam qaydasından səmərəli istifadə etməklə bu ağırlığı aradan qaldırırıq və nəticədə dil[1] bir dəfə lakin möhkəm və şiddətlə mudğəmunfih hərfinin məxrəcinə dəyərək ayrılır.

## İdğamın üç növü və onların Quranda yerləri

**1. Mütəmasiləyn idğamı:** Bu idğam bir-birinin misli olan iki hərfdə olub, (eyni bir hərfin təkrarı) onların bir və ya iki kəlmədə olmalarından aslı olmayaraq idğam olunması lazımdır.

**Məsələn:** قُلْ لَهُمْ    يُدْرِكْكُمْ kəlmələri

قُلَّهُمْ    يُدْرِكُّمْ oxunur.

❁**Tapşırıq:**

رَبِحَتْ تِجَارَتُهُمْ – اَلَمْ اَقُلْ لَكُمْ – تَسْتَطِعْ عَلَيْهِ – يُدْرِكْكُمْ – يُوَجِّهْهُ – فَاضْرِبْ بِهِ – قُلْ لَهُمَا فَلايُسْرِفْ فِى الْقَتْلِ – وَقُلْ لِعِبَادِى – ءَاوَوْا وَ نَصَرُوا

**2. Mütəcanisəyn idğamı:** Bu idğam həmməxrəc olan (bir məhəlldə tələffüz olunan hərflər) iki hərf bir-birinin kənarında yerləşdikdə əmələ gəlir. Bu hərflər bir və ya iki kəlmədə olmalarından asılı olmayaraq onların idğamı lazımdır.

Mütəcanisəyn idğamı Qurani-məciddə aşağıdakı yeddi halətdə əmələ gəlmişdir:

---

[1] Bu mətləb tələffüzündə dilin iştirakı olan hərflər barəsindədir. Dilin iştirakı olmayan hərflər məsələn həlqi və şəfəvi hərflər də bəzən idğam olunurlar ki, onların tələffüzündə dilin dəxaləti yoxdur.

1) Müdğəm «دال» və müdğəmunfih «تاء» hərfi olduqda, **Məsələn:**

عَبَدْتُمْ «عَبَتُّمْ»

2) Müdğəm «تاء» müdğəmunfih «دال» hərfi olduqda, **Məsələn:**

أُجِيبَتْ دَعْوَتُكُمَا «أُجِبَدَّعْوَتُكُمَا»

3) Müdğəm «تاء» müdğəmunfih «طاء» hərfi olduqda, **Məsələn:**

قَالَتْ طَآئِفَةٌ «قَالَ طَّآئِفَةٌ»

4) Müdğəm «تاء» müdğəmunfih «طاء» hərfi olduqda, **Məsələn:**

بَسَطْتَ «بَسَطتَ»

Qeyd etmək lazımdır ki, «طاء» hərfinin «تاء» hərfində idğamı naqis idğam olur.

**Naqis idağam:** Müdğəm hərfinin mühüm sifətlərindən biri qaldıqda idğam ***naqis idğam*** adlanır.

Yuxarıda dediyimiz halətdə «طاء» hərfinin itbaq sifəti qalmış olur.

Sakin nun və tənvinin də iki «واو» və «ياء» hərflərində idğamı naqisdir ki, izahı gələcəkdir.

5) Müdğəm «ذال» müdğəmunfih «ظاء» hərfi olduqda. **Məsələn:**

اِذْظَلَمُوا «اِظَّلَمُوا»

6) Müdğəm «ثاء» müdğəmunfih «ظاء» hərfi olduqda. **Məsələn:**

يَلْهَثْ ذٰلِكَ «يَلْهَذّٰلِكَ»

7) Müdğəm «باء» müdğəmunfih «ميم» hərfi olduqda. **Məsələn:**

اِرْكَبْ مَعَنَا «اِرْكَمَّعَنَا»

Axırıncı iki halət idğamsız da oxunur. Və bu halətlər deyilmiş iki misaldan başqa nümunəsi Quranda yoxdur.[1]

❁**Tapşırıq:**

كِدْتَ – عُدْتُمْ – قَدْتَبَيَّنَ – لَقَدْتَابَ – عَبَّدْتَ – اُجِيبَتْ دَعْوَتُكُمَا – اَثْقَلَتْ دَعَوَاللهَ – يَلْهَثْ ذٰلِكَ – وَدَّتْ طَآئِفَةٌ – هَمَّتْ طَآئِفَتَانِ – فَامَنَتْ طَآئِفَةٌ – فَرَّطْتُ – فَرَّتْطُمْ – اَحَطْتُ – اِذْ ظَلَمْتُمْ – اِذْ ظَلَمُوا

**3. Mütəqaribəyn idğamı:** Bu idğam məxrəcləri bir-birinə yaxın və ya bir çox sifətlərdə eyni olan hərflərdə əmələ gəlir. Onlara riayət etməklik iki halətdə lazımdır.

1) Sakin «لام» hərfi «راء» hərfində

قُلْ رَبِّ «قُرَّبِّ» – بَلْ رَبُّكُمْ «بَرَّبُّكُمْ»

2) Sakin «قاف» hərfi «كاف» hərfində. Bu halət Quranda fəqət bir yerdə və aşağıdakı kəlmədə əmələ gəlir:

«اَلَمْ نَخْلُقْكُمْ» kəlməsini

«اَلَمْ نَخْلُكُّمْ» oxuyuruq.[2]

[1] Əraf surəsi ayə 176 və Hud surəsi ayə 42
[2] Mürsəllat surəsi ayə 20

## İdağm olunmuş hərflərin əlamətləndirilməsi qaydası

Müdğəm hərfi müdğəmunfih hərfində idğam olunaraq, ondan kəlamda heç bir əsər qalmadıqda bu idğam ***kamil idğam*** adlanır. Bəzi Quranların yazılışında kamil idğamı göstərmək üçün əslində sakin olan müdğəm hərfini sükun əlaməti qoymadan və müdğəmunfih hərfini təşdid əlaməti ilə müəyyənləşdirirlər.

**Məsələn:**

قُلْ لَهُمْ «قُل لَّهُمْ» – قَالَتْ طَآئِفَةٌ «قَالَت طَّآئِفَةٌ»

اِذْ ظَلَمُوا «اِذ ظَّلَمُوا» – قُلْ رَبِّ «قُل رَّبِّ»

Müdğəm hərfi müdğəmunfih hərfində idğam olunan zaman onun sifətlərindən bir sifət qaldıqda və müdğəm bütünlükdə aradan getmədikdə bu idğam ***naqis idğam*** adlanır. Naqis idğamı göstərmək üçün müdğəm hərfini sükun əlaməti olmadan və müdğəmunfih hərfini də təşdid əlaməti olmadan müəyyənləşdirirlər.

**Məsələn:**

بَسَطْتَ «بَسَطتَ» – فَرَّطْتُمْ «فَرَّطتُمْ»

**❋Sual və tapşırıqlar❋**

1. İdğamın tərifini deyin və onun faydasını yazın.
2. Mütəcanisəyn idğamı hansı növ idğamdır?
3. Mütəqaribəyn idğamı hansı növ idğamdır?

4. Aşağıdakı misalların hansında idğam əmələ gəldiyini və onun növünü müəyyən edin.

يَغْفِرْلَكُمْ – فِى يَوْمٍ – سَلَكَكُمْ – اَوْوَزَنُوا – اِذْزَيَّنَ

فَاضْرِبْ بِهِ – عَبَّدْتُمْ – اِذْظَلَمُوا – فَرَّطْتُمْ – يَلْهَثْ ذٰلِكَ

5. «اسراء» surəsini 23-cü ayəsindən 49-cu ayəsinə qədər oxuyaraq, idğamın mütəmasiləyn, mütəcanisəyn və mütəqaribəyn olunan yerlərini məyyən edin.

## On birinci dərs

### SAKİN «ميم» HƏRFİNİN HÖKMLƏRİ

Sakin «ميم» hərfi əlifba hərflərinin yanında üç halət əmələ gətirir: **İdğam, ixfa və izhar.**

**1-İdğam:**

Sakin «ميم» hərfi özündən sonra gələn «ميم» hərfində idğam olunur. Bu idğam mütəmasiləyn və ğünnə ilə yanaşı olur.

**Məsələn:**

وَهُمْ مُهْتَدُونَ «وَهُمُّهْتَدُونَ» – كَمْ مِنْ «كَمِّنْ»

❁**Tapşırıq:**

هُمْ مِنْهَا – مِثْلَهُمْ مَعَهُمْ – كُنْتُمْ مُؤْمِنِينَ – بَيْنَهُمْ مَوْبِقًا
كَمْ مِنْ – رَبِّهِمْ مُشْفِقُونَ – ءَاتِيكُمْ مِنْهَا –جَاءَهُمْ مُوسٰى
تُصِيبَهُمْ مُصِيبَةٌ – اَجْرَهُمْ مَرَّتَيْنِ – فَهُمْ مُقْمَحُونَ

**2-İxfa:**

Sakin «ميم» hərfi «باء» hərfindən öncə gəldikdə ixfa olunur.

***İxfa*** lüğətdə «gizlətmək və məxfi etmək» mənasınadır. Istilahda isə «**hərfin izhar və idğam halətləri arasında olan bir vəziyyətdə, sonrakı hərf şiddətlə tələffüz olunmamaq şərtilə, ğünnə ilə yanaşı əda olunması**» mənasınadır.

«ميم» hərfi ixfa olunduğu zaman dodaqlar, aralarında kiçicik fasilə qalana qədər bir-birinə yaxınlaşmalıdırlar. Dodaqların bu halı, səs ğünnə halətində olmaqla yanaşı iki hərəkə miqdarında davam edir.

**Məsələn:**

رَبَّهُمْ بِهِمْ – اَمْ بِهِ جِنَّةٌ – بَيْنَهُمْ بِالْقِسْطِ

❁**Tapşırıq:**

اَنْتُمْ بِهِ – عَلَيْكُمْ بِوَكِيلٍ – كَلْبُهُمْ بَاسِطٌ – يَعْتَصِمْ بِاللهِ – تَأْتِيهِمْ بَغْتَةً – هُمْ بَارِزُونَ – يَجَّيْنَاهُمْ بِسَحَرٍ – اَنَّهُمْ بَادُونَ – هُمْ بدَؤُوكُمْ – صَبَّحَهُمْ بُكْرَةً – جُلُودُهُمْ بَدَّلْنَاهُمْ – عَلَيْهِمْ بِجَبَّارٍ

**3-İzhar:**

Sakin «ميم» hərfi idğam və ixfa halətlərində adları sadalanan hərflərdən başqa yerdə qalan bütün hərflərin yanında izhar olunur.

***İzhar*** lüğətdə «aşkar etmək» mənasına olub, istilahda isə «**hərfi öz məxrəcindən əda etmək**» mənasınadır.

Sakin «ميم» hərfindən sonra «ميم» və «باء» hərflərindən başqa yerdə qalan 26 hərfin hər biri gəldikdə «ميم» hərfi öz məxrəcindən və aşkar surətdə əda olunur.

Diqqət yetirmək lazımdır ki, «ميم» hərfi izhar olunduğu zaman hərəkə götürməməli və onun üzərində məks[1] olunmamalıdır.

Məlum olduğu kimi "izhar" haləti iki –«فاء» və «واو» hərflərinin yanında daha çox işlədilir, və diqqətə ehtiyac vardır ki, sakin «ميم» hərfi «فاء» hərfində ixfa və «واو» hərfində idğam olmasın.

Bu məqsədlə «ميم» hərfinin tələffüzündən sonra səs qət olmamışdan (kəsilməmişdən) öncə və ya dodaqlar bir-birindən şiddətlə ayrılmamışdan əvvəl zəriflikلə iki «فاء» və «واو» hərflərinin əda olunması halətinə gəlməlidir.

**Məsələn:**

لَكُمْ فِيهَا– يَمُدَّهُمْ فِى – اَنْفُسَهُمْ وَ اَمْوٰالَهُمْ

**❁Tapşırıq:**

ءَابَآؤُهُمْ فَهُمْ غَافِلُونَ – بِرَبِّكُمْ فَاسْمَعُونَ – يَذْرَؤُكُمْ فِيهِ – اَمْوٰالًا – تَأْخُذُهُمْ وَهُمْ يَخِصِّمُونَ – هُمْ وَاَزْوَاجُهُمْ فِى ظِلاَلٍ – اَمْوَاتٌ

---

[1] **Məks** nəfəsi təzələmədən qısa bir müddətdə dayanmağa deyilir.

## Quranlarda sakin «ميم»-in ixfa və idğam halətlərinin əlamətləndirilməsi qaydası

İdğam olunan zaman sakin «ميم» hərfini sükun əlaməti olmadan, onun əvəzində ikinci «ميم» hərfini təşdid əlaməti ilə müəyyənləşdirirlər.

**Məsələn:**

وَهُم مُّهْتَدُونَ – كَم مِّنْ – اَنَّكُم مُّلاَقُوهُ

İxfa halətində isə «naqis idğam» halətində olduğu kimi əncam verirlər.

**Məsələn:**

رَبَّهُم بِهِمْ – اَم بِهِ جِنَّةٌ – اَنَّهُم بَادُونَ

**❋Sual və tapşırıqlar❋**

1. Sakin «ميم» hərfinin əlifba hərflərinin yanında hansı hökümləri vardır? Hər bir halət üçün misal gətirin.
2. Sakin «ميم» hərfinin hökümlərində hansı halətdə ğünnə ilə əda olunur?
3. «ميم» hərfi izhar olunduğu halətdə hansı nöqtəyə diqqət edilməlidir?
4. «يس» surəsini 50-ci ayəyə qədər oxuyaraq sakin «ميم» hərfinin idğam və ixfa olunduğu yerləri müəyyənləşdirin.

## On ikinci dərs

### SAKİN «نون» HƏRFİ VƏ TƏNVİNİN HÖKMLƏRİ

$f_1$♣

Sakin «نون» və tənvin iyirmi səkkiz ədəd ərəb hərfləri yaxınlığında dörd hökmə malikdir: **izhar, idğam, iqlab və ixfa.**

**İzhar**

**Sakin «نون» hərfi** və ya **tənvin** həlq hərflərinə yetişdikdə «نون» hərfi öz məxrəcindən, adi və aşkar qaydada əda olunacaqdır.

**"Həlq hərfləri"** aşağıdakı altı hərfdən ibarətdir:

«همزه، هاء، عين، حاء، غين، خاء»

Sakin «نون» və tənvinin izhar olunduğu halətlərdə aşağıdakı nöqtlərə diqqət yetirmək lazımdır:

1-Sakin «نون» və ya tənvin özünə heç bir hərəkə götürməsin;

2-Sakin «نون» və tənvin sürətlə əda olunaraq onun üzərində məks olunmasın; (Çünki, belə olduğu surətdə təşdid əmələ gəlir)

3-Sakin «نون» və ya tənvin ilə həlq hərfləri arasında səs qət olunmamalıdır.

**Məsələn:**

**«همزه»:** يَنْـَٔوْنَ مَنْ ءَامَنَ رَسُولٌ اَمِينٌ

**«هاء»:** مِنْهُمْ اِنْ هُوَ قَوْمٍ هَادٍ

**«عين»:** اَنْعَمْتَ مِنْ عِلْمٍ سَمِيعٌ عَلِيمٌ

**«حاء»:** وَانْحَرْ مِنْ حَكِيمٍ عَلِيمًا حَلِيمًا

**«غين»:** فَسَيُنْغِضُونَ يَكُنْ غَنِيًّا اِلٰهٍ غَيْرِهِ

**«خاء»:** وَالْمُنْخَنِقَةُ مِنْ خَيْرٍ قَوْمٌ خَصِمُونَ

❁**Tapşırıq:**

مِنْ اَكْمَامِهَا مَنْ حَوْلَهَا – عَلِيٌّ حَكِيمٌ – قُرْءَانًا عَرَبِيًّا – مِنْ عِلْمٍ – مِنْ غِلٍّ – حَلِيمًا غَفُورًا – مِنْ غَآئِبَةٍ – كَلِمَةٍ خَبِيثَةٍ – مَنْ خَسَفْنَا – فَانْهَارَ – مِنْ هَمَزَاتِ – فَرِيقًا هَدٰى – شَيْئًا اِمْرًا – عَطَآءً حِسَابًا

## İdğam

Sakin «نون» və tənvin altı ədəd «يرملون» (yərməlun) hərfləri ilə idğam olunur və bu idğam iki ədəd «راء» və «لام» hərflərində ğünnəsiz və yerdə qalan dörd ədəd «ينمو» (yənmu) hərflərində isə ğünnə ilə yanaşı olur.

**Məsələn:**

**«راء»:** مَنْ رَحِمَ غَفُورٌ رَحِيمٌ

**«لام»:** مِنْ لَدُنْ رِزْقًا لَكُمْ

«ميم»: مِنْ مَعِىَ فَتْحًا مُبِينًا

«نون»: اِنْ نَشَاْ حِطَّةٌ نَغْفِرْ

«واو»: مِنْ وَلَدٍ اُمَّةً وَاحِدَةً

«ياء»: مَنْ يَقُولُ يَوْمَئِذٍ يَصَّدَّعُونَ

**Qeyd:** «بُنْيَان – دُنْيَا – صِنْوَان – قِنْوَان» kəlmələrində sakin «نون» hərfi və yərməlun hərflərindən olan «واو» və «ياء» hərfləri bir kəlmədə olduqlarından idğam olunmurlar.

❁**Tapşırıq:**

مِنْ مَحِيصٍ – فِىمِرْيَةٍ مِنْ لِقَآءِ – مِنْ وَلِيٍّ وَلاَنَصِيرٍ

فَضْلاً مِنْ رَبِّكَ – ءَايَاتٌ لِقَوْمٍ يُوقِنُونَ – مَنْ يَشَآءُ

عِظَامًا نَخِرَةً – اِنْ نَفَعَتِ – اِنْ لَبِثْتُمْ – مِنْ طِينٍ لازِبٍ

## Quranda Idğam halətlərinin əlamətləndirilməsi qaydası

Bəzi Quranlarda, idğam halətində sakin «نون» və tənvinin izhar olunmadığını göstərmək üçün sakin «نون» hərfini sükun əlaməti olmadan və tənvin (ــًــٌــٍ) əlamətini bir-birinə qeyri bərabər surətdə (ــًــٌــٍ) qərarlaşdırmışlar. Sakin «نون» və tənvinin bu «نّ، مّ، لّ، رّ» dörd hərfdə **kamil idğam** olmasını göstərmək üçün onları təşdid əlaməti ilə,

bu «و ، ي» iki hərfdə **naqis idğam** olmasını göstərmək üçün isə onları heç bir əlamət (təşdid əlaməti) olmadan yazmışlar.

**Məsələn:**

مَن رَّحِمَ – رِزْقًا لَّكُمْ – مَن مَّعِىَ – حِطَّةٌ نَغْفِرْ – مِن وَلَدٍ

أُمَّةً وَاحِدَةً – مَنْ يَقُولُ – يَوْمَئِذٍ يَصَّدَّعُونَ – وَاِن يَرَوْا

**❃Sual və tapşırıqlar❃**

1. Sakin «نون» və tənvin iyirmi səkkiz ədəd ərəb hərfləri yaxınlığında hansı hökmlərə malikdir?
2. Həlq hərflərini sadalayın.
3. Sakin «نون» və tənvinin idğamı neçə növdür? Misal gətirməklə izah edin.
4. Sakin «نون» hərfinin idğamından istisna olunmuş kəlmələri sadalayın.
5. «دخان» surəsini oxuyaraq sakin «نون» və tənvinin idğam olunduğu halətləri müəyyənləşdirin.

## On üçüncü dərs

## SAKİN «نون» HƏRFİ VƏ TƏNVİNİN HÖKMLƏRİ

$f_2$♣

### İqlab və ya qəlb

**İqlab** dedikdə burada məqsəd, sakin «نون» hərfi və tənvin «باء» hərfinin yanında qərar tapan zaman, onları sakin «ميم» hərfinə çevirməkdir. Buna diqqət yetirmək lazımdır ki, sakin «ميم» əmələ gəldikdən sonra «باء» hərfinin yanında **ixfa** olunur və «غُنّه» ilə yanaşı əda olunur.

**Məsələn:**

اَنْبِئْهُمْ – سَمِيعًا بَصِيرًا – مِنْ بَعْدِهِمْ – واقِعٌ بِهِمْ

❅**Tapşırıq:**

حِكْمَةٌ بَالِغَةٌ – مُنْبَثًّا – كَلَمْحٍ بِالْبَصَرِ – فَانْبَجَسَتْ – اَمَدًا بَعِيدًا – مِنْ بَعْدِهِمْ – يَنْبَغِى – اَنْ بُورِكَ – سَمِيعٌ بَصِيرٌ – فَانْبِذْ – مِنْ بُطُونِ – بَصِيرٌ بِالْعِبَادِ – مِنْ بَقْلِهَا – مَنْ بَعَثَنَا – مَشَّآءٍ بِنَمِيمٍ

## İxfa

Sakin «نون» hərfi və tənvin **«izhar», «idğam»** və **«iqlab»**da deyilən on üç hərfdən başqa yerdə qalan on beş hərfin yanında **ixfa** olunur.

**İxfa** başlananda dil «نون» hərfinin əda olunma məhəllinə yetişmədən, sonrakı hərf öz tələffüz məhəllinə yaxınlaşır, bu halda, səs «غُنّه» surətində iki hərəkə miqdarında davam edir və həmin vaxt yerdə qalan hərf asanlıqla tələffüz olunur.

Qeyd etmək lazımdır ki, ixfanın keyfiyyəti yerdə qalan hərfin növündən asılıdır. Yəni yerdə qalan hərf təfxim hərflərindən olduqda sakin «نون» və tənvinin ixfası qalın və dolu həcmlə, istifal hərflərindən olduqda isə, ixfa nazik olacaqdır.

Yuxarıda deyilən mətləblərdən aydın olur ki, sakin «نون» və tənvinin ixfası müxtəlif hərflərin yanında müxtəlif olur (bu hərflərdən hər birinin yanında digərindən fərqlənir). Mümkündür, bir adam ixfanı hərflərdən birinin yanında düzgün yerinə yetirsin lakin, digər hərfin yanında yaxşı ixfa edə bilməsin. Buna görə də ixfanın bütün on beş hərfin yanındakı halətlərini məşq edək:

**«ت»**:اَنْتُمْ          مَنْ تَابَ          جَنَّاتٍ تَجْرِى

**«ث»**:وَالْاُنْثَى          اَنْ ثَبَّتْنَاكَ          خَيْرٌ ثَوَابًا

**«ج»**:اَنْجَيْتَنَا          اِنْ جَعَلَ          خَلْقٍ جَدِيدٍ

**«د»**: عِنْدَهُمْ مِنْ دُونِهِ كَأْسًا دِهَاقًا

**«ذ»**: فَاَنْذَرْتُكُمْ مِنْ ذَهَبٍ بَاسِطٌ ذِرَاعَيْهِ

**«ز»**: اَنْزَلَ فَاِنْ زَلَلْتُمْ نَفْسًا زَكِيَّةً

**«س»**: فَاَنْسٰيهُمْ وَلَئِنْ سَاَلْتَهُمْ فَوْجٌ سَاَلَهُمْ

**«ش»**: يَنْشُرْ اِنْ شَآءَ رُكْنٍ شَدِيدٍ

**«ص»**: فَانْصُرْنَا وَلَمَنْ صَبَرَ قَوْمًا صَالِحِينَ

**«ض»**: مَنْضُودٍ مَنْ ضَلَّ عَذَابًا ضِعْفًا

**«ط»**:قِنْطَارًا اِنْ طَلَّقَكُنَّ كَلِمَةٍ طَيِّبَةٍ

**«ظ»**:يَنْظُرُونَ مِنْ ظَهِيرٍ قَوْمٍ ظَلَمُوا

**«ف»**:اَنْفُسَهُمْ كُنْ فَيَكُونُ خَالِدًا فِيهَا

**«ق»**:تَنْقِمُونَ مِنْ قَبْلُ سَمِيعٌ قَرِيبٌ

**«ك»**:اَلْمُنْكَرِ مَنْ كَانَ عُلُوًّا كَبِيرًا

## ❁Tapşırıq:

مِنْ ثَمَرَاتٍ – مِنْ شَهِيدٍ – لِتُنْذِرَ – يَنْتَصِرُونَ – فَانْظُرْ – بِقَدَرٍ فَاَنْشَرْنَا – فَاكِهَةٌ كَثِيرَةٌ – مِنْ جَنَّاتٍ مِنْ سُنْدُسٍ – اِنْ كُنْتُمْ – يَنْطِقُ – تَنْزِيلُ – اَزْوَاجًا ثَلاثَةً – مَنْ تَابَ – فَمَنْ ثَقُلَتْ – مِنْ جَانِبِ – مِنْ مَاءٍ صَدِيدٍ – مَنْ صَلَحَ – ذُرِّيَّةً ضِعَافًا – اِنْ ضَلَلْتُ – سَبْحًا طَوِيلاً – مِنْ ظَهِيرٍ

## Quranlarda iqlab və ixfanın əlamətləndirilməsi qaydası

Bəzi Quranlarda, iqlab halətində sakin «نون» və tənvinin izhar olunmadığını göstərmək üçün:

**1.** sakin «نون» hərfinin sükun əlamətini yazmamışlar və onun əvəzində «نون» hərfinin «ميم»ə iqlab olmasını (çevrilməsini) bildirmək üçün kiçik «م» hərfini onun üzərində نۢ yerləşdirmişlər;

**Məsələn:**

اَنبِئْهُمْ – مِن بَعْدِهِمْ مُنبَتًّا

**2.** tənvin «نون»unun «ميم» hərfinə iqlab olmasını bildirmək üçün onun əlaməti hərəkənin formasının təkrarı olduğundan, hərəkənin formalarından birini (sakin «نون»un göstərcisi olanı) yazmamışlar və əvəzində kiçik «م» hərfini yerdə qalan o biri əlamətin yanında ـَۢ ـُۢ ـِۭ yerləşdirmişlər.

**Məsələn:**

ايَةً بَيِّنَةً – مَشَّآءِ بِنَمِيمٍ – لَمُحِيطَةٌ بِالْكَافِرِينَ

İxfa halətində, naqis idğamda («نون» hərfinin «واو» və «ياء» hərflərində idğamı) olduğu kimi əməl etmişlər.

Belə ki, sakin «نون» və tənvinin izhar olmamazlığını göstərmək üçün sakin «نون» hərfinin sükun əlamətini yazmamış, tənvin əlamətini isə bir-

birinə bərabər olmayan (ــٌــًــٍ) surətdə qərarlaşdırmışlar. Kamil idğamın əmələ gəlmədiyini göstərmək üçün yerdə qalan hərfi təşdid əlaməti olmadan yazmışlar. Nəticədə, izhar və idğamın olmamazlığını göstərən və ixfa adlanan bir halət əmələ gəlir.

**Məsələn:**

مَا كُنتُم بِهِ – وَانشَقَّ – اَنذِرْهُمْ– مِن سُندُسٍ

خَالِدًا فِيهَا – سَمِيعٌ قَرِيبٌ – مِن صَلْصَالٍ كَالْفَخَّارِ

**❋Sual və tapşırıqlar❋**

1. Sakin «نون» və tənvin hansı hərflərin yanında «ميم»-ə qəlb olur?
2. Sakin «نون» hərfi və tənvin hansı hərflərin yanında ixfa olur.
3. «واقعه» surəsini oxuyun onda olan ixfa və iqlab halətlərini müəyyənləşdirin.

## On dördüncü dərs

## «غُنّه» HALƏTLƏRİNİN CƏM BƏNDİSİ

Keçən dərslərdə deyildiyi kimi «غُنّه» iki hərfin («ميم» və «نون» hərflərinin) əsl sifətidir. Bu iki hərf hər bir halətdə bu sifətə malikdirlər.

Hərəkəli və sakin, «ميم» və «نون» hərfləri izhar olunduqda təbii «غُنّه»yə malik olurlar. Lakin, aşağıdakı hallarda «نون» və «ميم» hərfləri qeyri təbbi «غُنّه»yə malik olub, onların sədası iki hərəkə miqdarında burun boşluğundan xaric olur:

1. Təşdidli «ميم»;
2. Təşdidli «نون»;
3. Sakin «ميم»in «ميم» hərfində idğamı;
4. Sakin «نون» və tənvinin dörd (ينمو) hərfdə idğamı;
5. Sakin «ميم»in «باء» hərfinin yanında ixfası;
6. Sakin «نون» və tənvinin «باء»nın yanında iqlabı;
7. Sakin «نون» və tənvinin yerdə qalan on beş hərfin yanında ixfası.

**Qeyd:**

«غُنّه»nin keyfiyyəti[1] deyilmiş halətlərdə şiddətdən zəifə doğru üç mərhələyə bölünür:

**Birinci mərhələ ibarətdir:**

1. Təşdidli «ميم» və «نون» hərflərinin «غُنّه»si;
2. «ميم» hərfinin «ميم»də idğamının «غُنّه»si;
3. Sakin «نون» və tənvinin «ميم» və «نون» hərflərində idğamının (***kamil idğam ğünnə ilə***) «غُنّه»si.

**Məsələn:**

لَمَّا – ثُمَّ – اِنَّكَ – جُنَّةً – تَمَّتْ – اَصْحَابُ النَّارِ – فَمِنْهُمْ مُقْتَصِدٌ – غَشِيَهُمْ مَوْجٌ – يَتَوَفَّيكُمْ مَلَكُ الْمَوْتِ – رَسُولًا مِنْهُمْ – مِنْ مَا – عَذَابًا نُكْرًا – عَنْ نَفْسِهَا

**İkinci mərhələ**[2] sakin «نون» və tənvinin «واو» və «ياء» hərflərində idğam olunma (***naqis idğam***) «غُنّه»sindən ibarətdir.

**Məsələn:**

مَنْ يَشَآءُ – بَعْدَ عُسْرٍ يُسْرًا – اَخْذًا وَبِيلاً – مِنْ وَرَقِ الْجَنَّةِ – عَلىٰ طَعَامٍ وَاحِدٍ – مِنْ وَلِيٍّ – قَبْضًا يَسِيرًا – مِنْ يُوسُفَ

**«غُنّه»si daha aşağı mərtəbədə olan üçüncü mərhələ ibarətdir:**

---

[1] Ğünnənin keyfiyyəti dedikdə, məqsəd onun zəif və şiddətli olmasıdır. Lakin ğünnənin uzadılma miqdarı bütün halətlərdə eyni olub və iki hərəkə miqdarındadır.

[2] Bu nəqtəyə diqqət yetirmək lazımdır ki, ğünnənin uzadılma miqdarı bütün yuxarıdakı hallarda iki hərəkə miqdarındadır.

1. «ميم» hərfinin «باء» hərfində ixfası;

2. Sakin «نون» və tənvinin «باء» hərfində iqlabı;

3. Sakin «نون» və tənvinin yerdə qalan on beş hərfin yanında ixfası.

**Məsələn:**

وَلايَغُرَّنَّكُمْ بِاللهِ – فَأُنَبِّئُكُمْ بِمَا – اَنْتُمْ بَرِيَئُونَ – اَسْفَارًا بِئْسَ – تُنْبِتُواعَلِيمٌ بِالظَّالِمِينَ – بِذَنْبِهِ – مِنْ قَبْلُ – اِنْ كُنْتُمْ – عَنْ ذِكْرِ – جَنَّاتٍ تَجْرِى – مِنْ فِرْعَوْنَ – كَلِمَةٌ سَبَقَتْ – مِنْ شَاطِئِ – اَنْ صَدُّوكُمْ – لَحْمًا طَرِيًّا

**❋Sual və tapşırıqlar❋**

1. «غُنّه» halətlərinin adlarını deyin.
2. «غُنّه» halətlərindən hansı birisi daha kamil «غُنّه»-yə malik olur?
3. «غُنّه» halətlərindən hansı biri ən aşağı «غُنّه» halətinə malik olur?
4. «صافات» surəsini 102-ci ayəyə qədər tilavət edərək, onun «غُنّه» halətlərini müəyyənləşdirin.

**On beşinci dərs**

# MƏDD VƏ QƏSR

f1♣

## Mədd və qəsrin mənası

«مدّ» "**mədd**" lüğətdə «**çoxluq və artmaq**» mənasına olub, istilahda isə «**mədd hərflərində səsin təbbi miqdarından çox uzadılmasına**» deyilir.

«قصر» "**qəsr**" məddin ziddi olub, lüğətdə «**qısa**» mənasınadır. Istilahda isə «**mədd hərflərini öz təbbii və adi ölçüsündə əda etmək**» mənasından ibarətdir.

## Mədd hərfləri və mədd səbəbi

Məddin əmələ gəlməsi üçün mədd hərfləri və məddin səbəbi lazımdır.

**Mədd hərfləri** ibarətdir:

1-sakin «الف» özündən əvvəlki hərf məftuh,

2-sakin «ياء» özündən əvvəlki hərf məksur,

3-sakin «واو» özündən əvvəlki hərf məzmum.

**Məddin səbəbi** «همزه» "həmzə" və «ـْـ» "sükundan" ibarətdir. Təşdidin daxilində sakin bir hərf olduğu üçün o da mədd səbəbi hesablanır.

Mədd hərfləri səbəbsiz olduqda yəni onlardan sonra həmzə ya sükun gəlmədikdə «**zati mədd**» adlanır və iki hərəkə miqdarında (mədd hərflərinin ən az uzadılma miqdarında) uzadılır.

**Məsələn:**

ءَاتُونِى – أُوذِينَا – نُوحِيهَا

Mədd hərflərində səsin uzadılma miqdarı iki hərəkə[1] olduqda onu «قصر» "**qəsr**", üç hərəkə olduqda «فوق قصر» "**fovqi qəsr**", dörd hərəkə olduqa «توسّط» "**təvəssut**", beş hərəkə olduqda «فوق توسّط» "**fovqi təvəssut**" və altı hərəkə olduqda «طول» "**tul**" adlandırırlar. Məddin miqdarı iki hərəkədən az olmayıb və altı hərəkədən də artıq deyildir.

## Məddin növləri

Səbəbi həmzə olan məddlər iki qismə bölünürlər: «مدّ متّصل» "**məddi müttəsil**" və «مدّ منفصل» "**məddi münfəsil**".

[1] Məddin miqdarını gəstərmək üçün bəzi vaxtlar əlif hərfinin tələffüzü və bəzi digər vaxtlarda isə əl barmaqlarının bir-bir bağlanıb və ya açılmasından istifadə olunur. Və bu insan zehnini yaxınlaşdırmaq üçündür. Əsas əlçü vahidi həmin hərəkədir yəni bir mütəhhərik hərfin tələffüz olunma zamanı. Və bu zaman qiraətlərin nəvlərinə «təhqiq, tədvir, təhdir» əsasən müxtəlif olur. hər kəs gərək əz qiraətinə uyğun əlçü vahidi seçsin.

Səbəbi sükun olan məddlər də həmçinin iki qismə bölünürlər: «مدّ لازم» "**məddi lazım**" və «مدّ عارض» "**məddi ariz**".

**<u>Məddi müttəsil</u>:** Mədd hərfi və həmzə bir kəlmədə olduqda **məddi müttəsil** əmələ gəlir. Bu məddin miqdarı dörd hərəkədən altı hərəkə miqdarında olur. **Məsələn:**

يَشَاءُ – سِيئَتْ – سُوءُ

**<u>Məddi münfəsil</u>:** Mədd hərfi kəlmənin sonunda, həmzə isə həmin kəlmənin ardınca gələn digər bir kəlmənin ibtidasında olduqda **məddi münfəsil** əmələ gəlir. Bu məddin miqdarı iki hərəkədən beş hərəkə miqdarında olur.

**Məsələn:**

رَبَّنَا اِنَّكَ – وَهُزِّى اِلَيْكِ – تُقْسِطُوا اِلَيْهِمْ

**Qeyd:**

1. Məddi münfəsildə birinci kəlmənin üzərində vəqf olunarsa, mədd səbəbinin olmamazlığı üzündən mədd hərfi öz təbbi miqdarında — «قصر» əda olunur.
2. «هاء» "ha" zəmirinin işba olunması nəticəsində əmələ gələn "mədd hərfi"ndən sonra «همزه» "həmzə" olarsa, bu mədd hərfi məddi münfəsil hökümündə olur və ona «مدّ اشباع» "məddi işba" da deyilir.

**Məsələn:**

مَالَهُ اَخْلَدَهُ – اِسْمُهُ اَحْمَدُ – مِنْ عِلْمِهِ اِلاَّ

## Bir neçə mətləb

1. Məddi münfəsilin miqdarı məddi müttəsilin miqdarından çox olmamalıdır.
2. Məddi münfəsil və məddi mütəsilin uzadılma miqdarında «təvazun mədd»ə həmahəngliyə riayət olunmalıdır. **«Təvazun mədd»in (həmahəngliyin)** mənası bundan ibarətdir: Məddi müttəsildən biri «طول» oxunarsa, bütün müttəsil məddlər də «طول» oxunmalıdır və ya məslən məddi münfəsildən biri «قصر» oxunsa digər hallarda da münfəsil məddləri həmin qayda ilə oxumaq lazımdır.
3. Məddi müttəsili qarilərdən heç biri «قصر» oxumadığını nəzərə almaqla, ona "**məddi vacib**" də deyirlər. Bu məddi münfəsilin müqabilindədir ki, ona «قصر» həm oxunduğu üçün "**məddi caiz**" də deyirlər.
4. Yuxarıdakı hallar (müttəsil və münfəsil məddləri) üçün bu şəkildə ????? əlaməti mədd hərflərinin üzərində yerləşdirmişlər.

❁**Tapşırıq:**

وَلَمْ يَكُنْ لَهُمْ مِنْ شُرَكَآئِهِمْ شُفَعَآءُ – وَجَآءُوٓا اَبَاهُمْ عِشَآءً يَبْكُونَ اَنْ يَعْلَمَهُ عُلَمَآءُ بَنِىٓ اِسْرَآئِيلَ – مَا تَعْبُدُونَ
مِنْ دُونِهِٓ اِلَّآ اَسْمَآءً سَمَّيْتُمُوهَآ اَنْتُمْ وَءَابَآؤُكُمْ مَآاَنْزَلَ اللّٰهُ بِهَا مِنْ سُلْطَانٍ – وَمَاتَشَآؤُونَ اِلَّآاَنْ يَشَآءَاللّٰهُ –
عَسٰى رَبُّنَآ اَنْ يُبْدِلَنَا خَيْرًا مِنْهَآ اِنَّآ اِلٰى رَبِّنَا رَاغِبُونَ – اَمْ لَهُمْ شُرَكَآءُ فَلْيَاْ تُوا بِشُرَكَآئِهِمْ اِنْ كَانُوا صَادِقِينَ اِنَّ
هٰٓؤُلَآءِ يُحِبُّونَ الْعَاجِلَةَ وَيَذَرُونَ وَرَآءَهُمْ يَوْمًا ثَقِيلاً

## ❋Sual və tapşırıqlar❋

1. Məddin tərifini deyin.
2. Məddin səbəbi nədir?
3. Məddi müttəsil ilə məddi münfəsil arasında hansı fərq vardır?
4. Məddlərdə həmahənglik nə deməkdir?
5. Yuxarıdakı ayələrdə məddin növünü müəyyən edin.
6. «زخرف» surəsini 47-ci ayəyə qədər tilavət edərək, müttəsil və münfəsil məddləri müəyyənləşdirin.

**On altıncı dərs**

## MƏDD VƏ QƏSR

ƒ2♣

### Məddi lazım

Səbəbi **zatən sükun** olan məddə «**məddi lazım**» deyilir.

«**Zatən sükun**» həmişə kəlmənin bir hissəsi olub, (**məsələn** «الْآنَ» kələməsində olan «ل»ın sükunu kimi) vəqf zamanı əmələ gələn «**arizi sükun**»un müqabilindədir (**məsələn** «نَسْتَعِينُ» kəlməsi, vəqf olunan zaman «نَسْتَعِينْ» oxuyuruq).

Məddi lazım fəqət «طول» oxunur.

Məddi lazımın səbəbi bəzi vaxtlar «مخفّف» "yüngül" sükun, (m**əsələn** «الْآنَ») və təşdid zamanı «مثقّل» "ağır" sükun olur (**məsələn** «ضَالِّينَ»).

Mədd yuxarıdakı misallarda kəlmədədir. Quranın müqəttəə hərflərində isə hərfdə olur ki, onun izahı sonrakı dərslərdə gələcək.

## Məddi ariz

Səbəbi **arizi sükun** olan məddə «**məddi ariz**» deyilir. «**Arizi sükun**» vəqf nəticəsində əmələ gəlir. Bu məddin iki hərfdən altı hərf miqdarında uzadılmasına icazə verilir.

**Məsələn:**

تُكَذِّبَانِ (تُكَذِّبَانْ) – تَعْلَمُونَ (تَعْلَمُونْ) – عَلِيمٌ (عَلِيمْ)

Arizi məddlərdə həmahəngliyə riayət etmək lazım deyildir.

## Məddi lin

Lin hərflərindən (sakin «واو» özündən əvvəliki hərf məftuh və sakin «ياء» özündən əvvəliki hərf məftuh) sonra sakin bir hərf gəldikdə ona «**məddi lin**» deyilir. Burada lin hərflərini iki hərəkədən altı hərəkə miqdarında uzada bilərik.

**Məsələn:**

Lazım sükun üçün misal:

(عَيْنْ) hərfi (كهيعص) və (حم عسق) kəlmələrində.

Arizi sükun üçün misal:

خَوْفٍ (خَوْفْ) – خَيْرٌ (خَيْرْ)

**Qeyd:**

Müqəttəə hərflərində cəmi on dörd hərf işlənmişdir ki, onlardar beş hərf «حيّ طَهُر» təbii məddə, yeddi hərf «سنقصّ لكم» məddi lazıma, bir hərf

«ع» məddi linə malikdir. Onlardan bir hərf «الف» heç bir məddə malik deyildir.

❅**Tapşırıq:**

قَالُوا اِنَّ هٰۤؤُلَاۤءِ لَضَاۤلُّونَ – وَتَرَى الْمَلاۤئِكَةَ حَاۤفِّينَ مِنْ حَوْلِ الْعَرْشِ وَ حَاۤجَّهُ قَوْمُهُ قَالَ اَتُحَاۤجُّوۤنّى فِىاللهِ وَقَدْ هَدٰينِ كٓهيعٓصٓ – يُوَاۤدُّونَ مَنْ حَاۤدَّ اللهَ وَ رَسُولَهُ – وَاللهُ خَلَقَ كُلَّ دَاۤبَّةٍ مِنْ مَاۤءٍ – ذالِكَ بِاَنَّهُمْ شَاۤقُّوا اللهَ وَرَسُولَهُ وَمَنْ يُشَاۤقّ اللهَ فَاِنَّ اللهَ شَدِيدُ الْعِقَابِ – وَ الصَّاۤفَّاتِ صَفًّا وَلَيْسَ بِضَاۤرِّهِمْ شَيْئًا – حمٓ عٓسٓقٓ – اَلْحَاۤقَّةُ، مَاالْحَاۤقَّةُ

❅ **Sual və tapşırıqlar**❅

1. Məddi lazım ilə məddi ariz arasında olan fərqi deyin.
2. Məddi lazımın neçə növü var?
3. Aşağıda verilmiş müqəttəə hərflərində məddin növlərini müəyyənləşdirin:

   حم عسق – المص – طه – كهيعص – المر

4. «مجادله» surəsini qiraət edərək, burada olan qeyri-təbii məddlərin növlərini müəyyənləşdirin.

## On yeddinci dərs

# VƏQF VƏ İBTİDA

## Vəqfin mənası

«وقف» "vəqf" sözü lüğətdə «dayanmaq» mənasına olub, qiraət istilahında isə «**Quranı tilavət edən zaman nəfəsi təzələmək üçün qiraəti davam etdirmək məqsədi ilə kəlmənin axırında dayanmaq və məks etmək**» mənasınadır.

Vəqfdən sonra tilavətin başlanmasına «**ibtida**» deyilir.

## Quran tilavətində vəqf və ibtidanın əhəmiyyəti

Qurani-kərimin ibarətlərinin düzgün vəqf və ibtida olunması böyük əhəmiyyətə malikdir. Belə ki, onlara diqqətsizlik üzündən ayələrin mənası başa düşülməz, naqis və hətta əksmənalı olur.

Qurani-kərimin tilavətində vəqf və ibtida bəhsinin əhəmiyyəti barəsində bunu demək bəsdir ki, həzrət Əli ibni Əbi Talib (ə) « وَرَتِّلِ الْقُرْءَانَ تَرْتِيلاً » ayəsinin mənasında vəqfi qorumağı Quran tərtilinin yarısı bilmişdir:

«الترتيل حفظ الوقوف وبيان الحرُوف»

Habelə qiraət alimləri də bu əqidədədirlər ki,

«مَنْ لَم يَعرِفِ الوَقفَ، لَم يَعلَمِ القُرءان» hər kəs vəqfin yerini düzgün tanımasa Quranı bilmir.

## Vəqfin növləri

Vəqf olunan yerdən əvvəl və sonra gələn iki ibarət arasındakı rabitə (əlaqə) bu vəqfin növünü təyin edir. Rabitə qiramatik qaydalar nəzərindən (nəhv) olduqda, «رابطه لفظى» "**ləfzi rabitə**" əmələ gəlir. Iki ibarət, yalnız bəhs olunan mövzu nəzərindən bir-biri ilə bağlı olarsa, «رابطه معنوى» "**mənəvi rabitə**" əmələ gəlir.

Vəqf, ləfzi və mənəvi rabitə əsasında dörd növə bölünür: **Tam**, **kafi**, **həsən** və **qəbih**.

### 1-Tam vəqf

Elə bir vəqfə deyilir ki, iki ibarətdən hər biri faydalı və müstəqil bir cümlə olub, onlarda heç bir ləfzi və mənəvi rabitə olmur. **Məsələn** aşağıdakı ayənin «الدّين» kəlməsində vəqf:

مَـٰلِكِ يَوْمِ ٱلدِّينِ ۝ إِيَّاكَ نَعْبُدُ وَإِيَّاكَ نَسْتَعِينُ[1]

---

[1] həmd surəsi ayə 4 - 5

## 2-Kafi vəqf

Elə bir vəqfə deyilir ki, hər iki ibarət ləfzi nöqteyi nəzərdən müstəqil olub, bir-birinə ehtiyacları yoxdur. Lakin mövzuları və mətləbləri bir-biri ilə əlaqəlidir «رابطه معنوى». **Məsələn** Aşağıdakı ayənin «السّفهاء» kəlməsində olan vəqf:

وَإِذَا قِيلَ لَهُمْ ءَامِنُواْ كَمَآ ءَامَنَ ٱلنَّاسُ قَالُوٓاْ أَنُؤْمِنُ كَمَآ ءَامَنَ ٱلسُّفَهَآءُ أَلَآ إِنَّهُمْ هُمُ ٱلسُّفَهَآءُ وَلَٰكِن لَّا يَعْلَمُونَ[1]

## 3-Həsən vəqf

Elə bir ibarətdə olan vəqfə deyilir ki, faydalı və başa düşüləndir, lakin ondan sonrakı ibarət müstəqil olmayıb, özündən əvvəlki ibarətə ləfzi rabitəsi vardır. **Məsələn** aşağıdakı ayənin «قُلُوبِهِمْ» kəlməsi üzərində olunan vəqf:

خَتَمَ ٱللَّهُ عَلَىٰ قُلُوبِهِمْ وَعَلَىٰ سَمْعِهِمْ ...[2]

## 4-Qəbih vəqfi

Elə bir vəqfə deyilir ki, iki ibarətdən heç biri faydalı cümlə olmayıb, bir-birləri ilə həm ləfzi və həm də mənəvi rabitəsi vardır. **Məsələn** aşağıdakı ayənin «الله» kəlməsi üzərində olunan vəqf:

[1] Bəqərə surəsi ayə 13
[2] Bəqərə surəsi ayə 7

خَتَمَ ٱللَّهُ عَلَىٰ قُلُوبِهِمْ ...[1]

**Qeyd:** Tam və kafi vəqflərdə sonrakı cümlədən ibtida etməyə icazə verilir, lakin həsən və qəbih vəqflərdə sonrakı cümlədən ibtida etməyə icazə olmayıb, vəqf məhəllindən qabaqda olan münasib bir yerdən ibtida olunmalıdır.

"Vəqf" və "ibtida"nın yerlərini tanımaq ərəb ədəbiyyəti ilə tanışlıq və Quran ayələrinin mənasını bilməkliyi tələb edir ki, adi camaatın ona kifayət qədər tanışlığı yoxdur. Bu cəhətdən qiraət alimləri vəqf və ibtidanın münasib yerlərini göstərmək üçün bir sıra əlamətlər qərarlaşdırıblar. Onların ən mühümlərini aşağıda şərh edirik.

## Vəqf əlamətləri

✵ **«م»:** əlaməti «لازم» vəqfinin nişanəsidir.

Bu əlamət olan yerdə vəqf etmək vacibdir. Vəsl oxunarsa, cümlənin mənası dəyişmiş olur.

إِنَّمَا يَسْتَجِيبُ ٱلَّذِينَ يَسْمَعُونَ ۘ وَٱلْمَوْتَىٰ يَبْعَثُهُمُ ٱللَّهُ ثُمَّ إِلَيْهِ يُرْجَعُونَ[2]

✵ **«ط»:** əlaməti «مطلق» vəqfinin nişanəsidir.

Bu əlamət olan yerdə təkid olunur ki, vəqf olunsun və özündən sonrakından ibtida etmək də çox gözəldir. Çünki, cümlənin mənası

[1] Bəqərə surəsi ayə 7
[2] Ənam surəsi 36 - чı ayə

tamamdır və ondan sonrakı ibarətin də özündən əvvəlkinə heç bir bağlılığı yoxdur.

**Məsələn:**

أَلَمْ تَعْلَمْ أَنَّ ٱللَّهَ لَهُۥ مُلْكُ ٱلسَّمَٰوَٰتِ وَٱلأَرْضِ ط وَمَا لَكُمْ مِّن دُونِ ٱللَّهِ مِن وَلِيٍّ وَلاَ نَصِيرٍ[1]

✵ **«ج»:** əlaməti «جايز مُسْتَوِى الطَّرفَيْن» (eyni səviyyəli) vəqfinin nişanəsidir və ona «**caiz vəqf**» deyilir

Bu əlamət olan yerlərdə vəqf və vəsl etmək, hər ikisi caizdir.

**Məsələn:**

نَحْنُ نَقُصُّ عَلَيْكَ نَبَأَهُم بِٱلْحَقِّ ج إِنَّهُمْ فِتْيَةٌ ءَامَنُواْ بِرَبِّهِمْ وَزِدْنَٰهُمْ هُدًى[2]

✵ **«ز»:** əlaməti «مجوَّز» "mücəvvəz" vəqfinin nişanəsidir.

Bu əlamət olan yerlərdə vəqfə icazə verilir, lakin vəsl etmək daha yaxşıdır. Və bu əlamət elə yerlərdə qoyulur ki, vəqf və vəsl hər ikisi möcuddur lakin vəsl cəhəti daha güclüdür.

**Məsələn:**

فِى قُلُوبِهِم مَّرَضٌ فَزَادَهُمُ ٱللَّهُ مَرَضاً ز وَلَهُمْ عَذَابٌ أَلِيمٌ بِمَا كَانُوا يَكْذِبُونَ[3]

✵ **«ص»:** əlaməti «مُرَخَّص» vəqfinin nişanəsidir.

---

[1] Bəqərə surəsi ayə 107
[2] Kəf surəsi 13-чü ayə
[3] Bəqərə surəsi 10-чu ayə

Bu əlamət o yerdə qoyulur ki, kəlam çox uzun olub, onu birnəfəsə oxumaq mümkün olmasın. Buna görə də nəfəs çatışmayan surətdə vəqf etməyə icazə verilir və vəqfdən sonra kəlamın ədası da lazım deyildir. Çünki, kəlam özündən əvvəlkinə rabitəsi olduğu halda məfhuma malikdir.

**Məsələn:**

ص

ٱلَّذِى جَعَلَ لَكُمُ ٱلأَرْضَ فِرَٰشاً وَٱلسَّمَآءَ بِنَآءً وَأَنزَلَ مِنَ ٱلسَّمَآءِ مَآءً..[1]

✱ **«لا»:** əlaməti «ممنوع» (qadağan) vəqfinin nişanəsidir.

Bu əlamət olan yerlərdə vəqfə icazə verilmir. Nəfəsin tamam olduğu və ya başqa səbəblər üzündən məcbur olub vəqf edilərsə, fasiləsiz olaraq vəqf olunan yerdən qabaq münasib bir yerdən ibtida olunmalıdır. Çünki, ondan sonra gələn cümlənin özündən qabaqdakı cümləyə tam rabitəsi vardır.

**Məsələn:**

لا

وَلَئِنِ ٱتَّبَعْتَ أَهْوَآءَهُم بَعْدَ ٱلَّذِى جَآءَكَ مِنَ ٱلْعِلْمِ مَا لَكَ مِنَ ٱللَّهِ مِن وَلِيٍّ وَلاَ نَصِيرٍ[2]

Bə əlamət ayələrin axırında da gəlir. Bu hallarda vəqfin caiz olmasına baxmayaraq vəsl etmək hər cəhətdən daha yaxşıdır.

**Məsələn:**

---

[1] Bəqərə surəsi ayə 22

[2] Bəqərs surəsi 120-чi ayə

أَرَأَيْتَ ٱلَّذِى يَنْهَىٰ ۞ عَبْدًا إِذَا صَلَّىٰ[1]

✵ **«قلى»:** əlaməti «اولويت وقف» vəqfinin (vəqfin üstünlüyü) nişanəsidir.

Bəzi Quranlarda «ط» əlamətinin yerinə gəlir.

**Məsələn:**

يَخْتَصُّ بِرَحْمَتِهِ مَن يَشَآءُ ۗ وَٱللَّهُ ذُو ٱلْفَضْلِ ٱلْعَظِيمِ[2]

✵ **«صلى»:** əlaməti «اولويت وصل» vəqfinin (vəslin üstünlüyü) nişanəsidir .

Bu əlamət bəzi Quranlarda «ز» əlamətinin yerinə gəlir.

**Məsələn:**

وَإِذَا سَأَلَكَ عِبَادِى عَنِّى فَإِنِّى قَرِيبٌ ۖ أُجِيبُ دَعْوَةَ ٱلدَّاعِ إِذَا دَعَانِ ۖ فَلْيَسْتَجِيبُوا۟ لِى وَلْيُؤْمِنُوا۟ بِى لَعَلَّهُمْ يَرْشُدُونَ[3]

✵ «∴ ∴»: əlaməti «مُعانَقَه» vəqfinin nişanəsidir.

Bu «∴» əlamət heç vaxt tənha olmayıb, bir ayənin iki müxtəlif yerində işlədilir. Eyni zamanda hər iki yerdə vəqf etməyə icazə verilmir. Bu iki yerdən birində vəqf etmək ikincisində vəslin vacib olmasına səbəb olur.

**Məsələn:**

قَالَ فَإِنَّهَا مُحَرَّمَةٌ عَلَيْهِمْ ∴ أَرْبَعِينَ سَنَةً ∴ يَتِيهُونَ فِى ٱلْأَرْضِ فَلَا تَأْسَ عَلَى ٱلْقَوْمِ ٱلْفَٰسِقِينَ[4]

---

[1] Ələq surəsi ayə 9 10
[2] Ali Imran surəsi 74 - чi ayə
[3] Bəqərə surəsi 186-чı ayə
[4] Maidə surəsi 26-чı ayə

Yuxarıdakı ayənin «عليهم» kəlməsində vəqfə icazə verən alimlər «اربعين سنة» kəlməsində vəqfə icazə vermirlər. Və «اربعين سنة» kəlməsində vəqfə icazə verən alimlər «عليهم» kəlməsində vəqfə icazə vermirlər. Buna görə də Quran oxuyan bu əlamət olan ayələrdə bu iki yerdən birini vəqf etmək üçün seçir.

❋**Suall və tapşırıqlar**❋

1. Vəqfin mənası nədir?
2. «Caiz» və «mücəvvəz» vəqfləri arasındakı fərqi deyin.
3. «مُعانَقَه» vəqfini izah edin.
4. Ayənin axırında «لا» olduqda vəqf etmək olarmı?
6. «قلى» və «صلى» əlamətlərinin mənası nədir?
7. «احقاف» surəsini tilavət edərək, onda olan vəqf əlamətlərini izah edin.

On səkkizinci dərs

## BİR NEÇƏ MƏTLƏB

### 1-Təshil

«تسهيل» "**təshil**"in ("təhqiq"in ziddi) mənası lüğətdə «**asan etmək**» olub, istilahda isə «**həmzəni asan surətdə tələffüz etmək**» mənasınadır.

Bildiymiz kimi həmzə nəbr sifətinə malik olub, «أَثْقَلُ الحروف» (hərflərin ən ağırı)dır. Buna görə də o kamil surətdə əda olunmalıdır. Fəqət «ءَاَعْجَمِىٌّ»[1] kəlməsində olan ikinci həmzə (Asimdən olan Həfs rəvayətinə görə) **təshil** olur. Yəni «ء» həmzəni öz məxrəcindən və şiddətlə tələffüz etməyib, onu «**həmzə**» ilə «**əlif məddi**» arasında olan bir halətdə tələffüz edirik.

Bəzi qarilər təshil olunan həmzəni «ء» həmzə ilə «هاء» arasında tələffüz edirlər. Lakin onun tam şəkildə «هاء» hərfinə çevrilməsi düzgün deyildir.

---

[1] Füssülət surəsi ayə 44

## 2-İmalə

«امالہ» "**imalə**" lüğətdə «**meyl vermək**» mənasına olub, istilahda isə «**fəthənin sədasını kəsrəyə doğru və əlif məddinin sədasını «ياء» hərfinə doğru meyl vermək**»dən ibarətdir.

İmalə iki növə bölünür: **«Kubra»** və **«suğra».**

a) Fəthə sədasının az bir miqdarda kəsrəyə doğru meyillənməsinə **«suğra»** deyilir ki, onu **«təqlil»** də adalndırmışlar. Bu növ imalə Asimdən olan həfs rəvayətində yoxdur.

b) Fəthə sədasının kəsrəyə doğru çox miqdarda meyillənməsinə **«Kubra»** deyilir. Və Asimdən olan həfs rəvayətində «imalə»dən məqsəd elə budur. Bu Quranın «مَجْرَىٰهَا»[1] kəlməsindədir. Burada «راء» hərfiində olan fəthənin sədası kəsrəyə doğru və ondan sonrakı "əlif" «ياء» hərfinə doğru meyl edir. Bu surətdə «راء» hərfi tərqiq olacaq. Diqqət yetirmək lazımdır ki, fəthə və əlif təmamilə kəsrə və "ya məddi"nə çevrilməsin.

Bəzi Quranlarda bu kəlmənin «راء» hərfinin altında imaləni göstərmək üçün « ◊ » əlamətini yerləşdirmişlər.

---

[1] Һud surəsi ayə 41

## 3-İşmam

«اشمام» “**işmam**” istilahda “**hərfin sədasına təsir etmədən, dodaqların qönçələnməsi vasitəsilə həzf olunmuş hərəkəyə işarə etmək**” mənasınadır.

Onun yeri Asimdən olan həfs rəvayətinə görə «لاتَأْمَنَّا» kəlməsində olur ki, əslində «لاتَأْمَنُنَا» idi və bu kəlmə nəfyidir (mənfi), nəhy deyildir. Idğamdan sonra birinci «نون» hərfi sakinə çevrildiyi və nəhy feyli ilə dəyişik düşdüyündən işmam surətində silinmiş zəmməyə işarə etmək lazımdır. Bu məqsədlə təşdidli «نون» hərfini tələffüz edən vaxt bir anlıq dodaqları zəmmənin əda olunması surətində qönçələndiririk.

## 4-Səkt

«سكت» “səkt” lüğətdə «**sükut**» mənasına olub istilahda isə ibarətdir: «**kiçik bir zamanda, nəfəsi təzələməmək şərti ilə sədanın iki hərəkə miqdarında kəsilməsi**». Asimdən olan həfs rəvayətində səktin olduğu yer aşağıdakılardan ibarətdir:

1– ٱلْحَمْدُ لِلَّهِ ٱلَّذِى أَنزَلَ عَلَىٰ عَبْدِهِ ٱلْكِتَٰبَ وَلَمْ يَجْعَل لَّهُۥ
عِوَجَا ۜ ۝ قَيِّمًا لِّيُنذِرَ بَأْسًا شَدِيدًا مِّن لَّدُنْهُ..[1]

---

[1] Kəhf surəsi ayə 1 və 2

Burada «عِوَجًا قَيِّمًا» surətində oxunulmalıdır. Səktin yerinə yetirilmə qaydası eyni vəqfin yerinə yetirilmə qaydasıdır (nəfəsi təzələməmək şərti ilə).

2– قَالُوا يَٰوَيْلَنَا مَن بَعَثَنَا مِن مَّرْقَدِنَا ۜ هَٰذَا مَا وَعَدَ ٱلرَّحْمَٰنُ وَصَدَقَ ٱلْمُرْسَلُونَ[1]

Qeyd etmək lazımdır ki, bu iki halətdə səkt zamanı «عِوَجًا» və «مَرْقَدِنَا» kəlmələri üzərində vəqf olunmamalı vəsl ilə qiraət edilməlidir.

3– كَلَّآ إِذَا بَلَغَتِ ٱلتَّرَاقِىَ ۝ وَقِيلَ مَنْ ۜ رَاقٍ ۝ وَظَنَّ أَنَّهُ ٱلْفِرَاقُ[2]

4– إِذَا تُتْلَىٰ عَلَيْهِ ءَايَٰتُنَا قَالَ أَسَٰطِيرُ ٱلْأَوَّلِينَ ۝ كَلَّا بَلْ ۜ رَانَ عَلَىٰ قُلُوبِهِم مَّا كَانُوا يَكْسِبُونَ[3]

Sonda Qurani-kərimi öyrənib və öyrətmək işlərində mütəal Allahdan sizlərə müvəffəqiyyət istəyirik.

❈**Sual və tapşırıqlar**❈

1. Təshilin tərifini deyin və Asimdən olan Həfs rəvayətinə görə onun hansı kəlmədə əmələ gəldiyini yazın.

[1] Yasin surəsi ayə 52
[2] Qiyamət surəsi ayə 28
[3] Mütəffəfin surəsi ayə 14

2. İmalənin tərifini deyin və Asimdən olan Həfs rəvayətində hansı kəlmənin imalə olunduğunu yazın.
3. Asimdən olan Həfs rəvayətində səktin olduğu yerləri yazın.
4. İşmamın tərifini deyin və Asimdən olan Həfs rəvayətində hansı kəlmənin işmam olduğunu yazın.

## <u>Qurani-kərimin təcvidinin dörd cavablı sualları</u>

1. **Qiraət istilahında "təcvid" hərfi .......... yanaşı öz məxrəcindən tələffüz edilməsinə deyilir.**
   **a)** əsl sifət və əhkamına riayət etməklə
   **b)** hecalamaqla
   **v)** mənasına diqqət yetirməklə
   **s)** hər üç bənd düzgündür.
2. **"*Hərəkə qəbul etməyən əlif*" məftuh hərfdən sonra gələrək həmin hərfin .......... formada tələffüz olunmasına səbəb olur.**
   **a)** fəthəsinin iki dəfə uzadılmış
   **b)** məftuh
   **v)** təbii mədd
   **s)** a və v bəndləri düzgündür.
3. **Cümlənin əvvəlində gələn vəsl həmzəsi .......... olur.**
   **a)** məftuh
   **b)** məksur
   **v)** feil, isim və hərfdə olmasından asılı olaraq müxtəlif
   **s)** məzmum

**4. Məşhur nəzəriyyəyə əsasən hərflər ………. məxrəcdən tələffüz olunur. Danışıq üzvüləri bu məxrəclərə əsasən ……… hissəyə bölünür.**

**a)** 17 – 5 **b)** 17 - 3

**v)** 18 – 5 **s)** 18 - 3

**5. «حلق» hissəsi .......... məxrəcə malik olub .......... hərfin əmələ gəldiyi yerdir.**

**a)** 6 – 6 **b)** 3 - 6

**v)** 2 – 6 **s)** 3 - 3

**6. «ذَلْقى» hərfləri ibarətdirlər:**

**a)** لام– نون **b)** لام– راء

**v)** نون– راء **s)** hər üç bənd düzgündür

**7. «شَجْرى» .......... məxrəcə malik olub, «………. ،شين ،جيم» hərflərindən ibarətdir.**

**a)** 3 - «mədd olmayan «ياء» hərfi»

**b)** 3 - «ياء mədd hərfi»

**v)** 1 - «mədd olmayan «ياء» hərfi»

**s)** 1 - «ياء mədd hərfi»

**8. «نِطْعى» .......... məxrəcə malik olub və «..........» hərflərinə şamildir.**

**a)** 1 - «ط – د – ت» **b)** 3 - «ط – د – ت»

**v)** 1 - «ت – ط» **s)** 2 - «ت – ط»

**9. «شفتين» .......... məxrəcə malik olub və «..........» hərfə şamil olur.**

**a)** 1 - 3 **b)** 2 - 3

**v)** 1 - 4 **s)** 2 - 4

**10. «همس، انفتاح، رخوت» sifətlərinin ziddi tərtib ilə ibarətdirlər:**

**a)** جهر، اذلاق، شدّت **b)** اذلاق ، اطباق، جهر

**v)** جهر، اطباق، شدّت **s)** شدّت، اطباق، جهر

**11. Aşağıda verilmiş bəndlərin hansı birisində hərflərin hamısı «شدّت» sifətinə malikdir?**

**a)** فَحَثَّهُ شَخْصٌ سَكَتَ

**b)** اَجَدْتُ طَبَقَكَ

**v)** لَمْ نَزْعَ

**s)** b və v bəndərləri dünzgündür.

**12. Istela və itbaq sifətlərinə malik olan hərflər ibarətdirlər:**

**a)** ص، غ، ط، خ **b)** ص، خ، غ، ض

**v)** ط، غ، ق، ظ **s)** ط، ض، ظ، ص

**13. «سين، صاد» hərfləri .......... sifətinə malikdirlər.**

**a)** səfir və təfəş **b)** Istitalə və səfir

**v)** hər ikisi istitalə **s)** hər ikisi səfir

**14. «غُنّه» ........... bir səsdir.**

**a)** hərflərin idğamından əmələ gələn
**b)** burun boşluğundan xaric olan
**v)** dodaqların yığılmasından əmələ gələn
**s)** a və b bəndləri düzgündür.

**15. «قلقله» qiraət istilahında «hərfi sükun edən zaman ........ » deyilir.**

**a)** sədasının azad buraxılması və aşkar edilməsi
**b)** «قطب جد» hərflərinin tələfüzünə
**v)** sədasının möhkəm və şiddətlə əda olunmasına
**s)** a və b bəndləri düzgündür.

**16. Ərəb hərflərinin tələffüzünün bizim dildən fərqli olanları ibrətdirlər:**

**«ص، ض، ط، ظ، ع .........»**

**a)** «ح، ذ، غ، ق، و» **b)** «خ، ر، غ، ق، ذ»
**v)** «ث، ح، خ، ق، و» **s)** «ث، و، ح، ق، ذ»

**17. «……» hərfi həlqin ortasından və özünə məxsus tutqunluqla tələffüz olunur.**

**a)** عين **b)** همزه
**v)** هاء **s)** حاء

**18. «……» hərfi «سين» hərfi kimi tələffüz olunur bu fərqlə ki, o hərf «……» sifətinə malikdir.**

**a)** تفشی – ثاء **b)** نفث – ثاء

**v)** نفث – ذال **s)** استطاله – صاد

**19. «طاء» hərfi «تاء» hərfi kimi tələffüz olunaraq, «……» sifətinə malikdir.**

**a)** اطباق و استعلاء **b)** اطباق و جهر

**v)** استعلاء و جهر **s)** hər üç bənd düzgündür.

**20. «ذال» hərfi «……» hərfi kimi bir yerdən əmələ gəlir və «……» sifətinə malikdir.**

**a)** جهر – زاء **b)** جهر – ثاء

**v)** همس – ظاء **s)** همس – ثاء

**21. «……» hərfi «ذال» hərfi kimi tələffüz olunur bu fərqlə ki, o hərf «……» sifətinə malikdir.**

**a)** اطباق – ظاء **b)** تفشّی – ثاء

**v)** انفتاح – ظاء **s)** a və b bəndləri düzgündür.

**22. «ضاد» və «ظاء» istela hərflərindən olub, «……» sifətinə malikdirlər.**

**a)** اطباق və جهر **b)** اطباق və استطاله

**v)** جهر və استطاله **s)** hər üç bənd düzgündür

**23. «تفخيم» sifətinə malik olan hərflər ibarətdirlər:**

**«ص، ض، ط، ظ .....»**

**a)** ح، خ، غ　　**b)** ع، غ، ق

**v)** غ، خ، ق　　**s)** hər üç bənd düzgündür.

**24. Əlif məddi «ص، ض، ط، ظ، ق، .....» hərflərindən sonra təfximlə əda olunur.**

**a)** ح، ع، غ　　**b)** ع،غ، ر

**v)** و، ع، غ　　**s)** خ، غ، ر

**25. «لام» hərfinin hökmü «يَجِدِاللهَ، عَلَّامُ، عَلَىاللهِ ظُلُمَاتُ» kəlmələrində aşağıdakı tərtiblədir:**

**a)** təğliz, təğliz, təğliz, təğliz,

**b)** təğliz, tərqiq, təğliz, tərqiq,

**v)** tərqiq, təğliz, təğliz, təğliz,

**s)** tərqiq, tərqiq, təğliz, tərqiq,

**26. «راء» hərfi «......» olduqda təfxim olur.**

**a)** sakin özündən əvvəlki hərf məftuh

**b)** məzmum ya məftuh

**v)** sakin özündən əvvəlki hərf məzmum

**s)** hər üç bənd düzgündür.

**27. hansı bənddirki, verilmiş kəlmələrin hamısında «راء» hərfi tərqiq olunur?**

**a)** حَرِّقُوهُ – مِرْصَادْ – رِزْقٍ

**b)** اِرْبَةٍ – فِرْعَوْنَ – اِنِ آرْتَبْتُمْ

**v)** كَرِيمٍ – خَيْرٌ – مِرْيَةٍ

**s)** فِرْقَةٍ – ذُكِّرْتُمْ – فَاصْبِرْ

**28. Məxrəc nöqteyi nəzərindən bir-birinə yaxın olan iki hərfə «……» hərfləri deyirlər.**

**a)** mütəcanisəyin

**b)** mütəqaribəyn

**v)** mütəşabihəyn

**s)** mütəmasiləyn

**29. «اِذْظَلَمُوا – بَلْ رَبُّكُمْ – بَسَطْتَ» ibrətlərində idğamın növü tərtiblə aşağıdakı kimidir.**

**a)** mütəcanisəyn, mütəqaribəyn, mütəcanisəyn;

**b)** mütəqaribəyn, mütəcanisəyn, mütəcanisəyn;

**v)** mütəqaribəyn, mütəqaribəyn, mütəcanisəyin;

**s)** mütəcanisəyn, mütəqaribəyn, mütəqaribəyn.

**30. Sakin mim hərfinin hökmü «لَكُمْ فِيهَا، مِثْلَهُمْ مَعَهُمْ، اَنْتُمْ بِهِ» ibarətlərində tərtiblə aşağıdakı kimidir.**

**a)** ixfa, idğam, izhar;

**b)** izhar, idğam, ixfa;

**v)** iqlab, idğam, izhar;

**s)** izhar, idğam, iqlab.

**31. Sakin mim hərfi bu «......» iki hərfdən başqa yerdə qalan bütün hərflərin yanında izhar olunur.**

**a)** ب، م **b)** ف، و

**v)** م، ف **s)** ب، ف

**32. Sakin nun və tənvinin hökmü «كُنْ فَيَكُونَ، مِنْ لَدُنْ، اِلٰهٍ غَيْرِهِ» ibarətlərində aşağıdakı tərtiblədir:**

**a)** ixfa, idğam, izhar; **b)** izhar, idğam, ixfa;

**v)** izhar izhar, ixfa; **s)** izhar, idğam, izhar.

**33. Sakin nun və tənvin bu «و، ى» iki hərfin yanında «......» idğam olur:**

**a)** ğünnə ilə; **b)** ğünnəsiz;

**v)** naqis; **s)** a və v bəndləri düzgündür.

**34. Sakin nun və tənvin .......... olur.**

**a)** dörd «ينمو» hərflərinin yanında ğünnə ilə idğam;

**b)** iki «و، ى» hərflərinin yanında naqis idğam;

**v)** dörd «ل، ر، م، ن» hərflərinin yanında kamil idğam;

**s)** hər üç bənd düzgündür.

**35. Aşağıdakı bəndlərin hansında idğam ğünnə ilə əmələ gəlir:**

**a)** مَنْ رَحِمَ– وَاِنْ يَرَوْا– اَمَّةً وَاحِدَةً

**b)** مَنْ مَعِىَ – مَنْ يَقُولُ – حِطَّةٌ نَغْفِرْ

**v)** مِنْ وَالٍ – رِزْقًا لَكُمْ – فِسَكٍّ يَلْعَبُونَ

**s)** a və b bəndləri düzgündür.

**36. «هَمَّازٍ مَشَّآءٍ بِنَمِيمٍ مَنَّاعٍ لِلْخَيْرِ» ibarətində neçə yerdə «ğünə» mövcuddur.**

**a)** 5 yerdə  **b)** 7 yerdə

**v)** 6 yerdə  **s)** 4 yerdə

**37. «خَلَقَكُمْ مِنْ تُرَابٍ ثُمَّ اِذَا اَنْتُمْ بَشَرٌ تَنْتَشِرُونَ» ibarətində neçə ğünnə mövcuddur.**

**a)** 7 yerdə  **b)** 5 yerdə

**v)** 8 yerdə  **s)** 6 yerdə

**38. «Məddi ..........»in səbəbi «..........» olub, bir kəlmədədirlər.**

**a)** müttəsil – sükun;  **b)** müttəsil – həmzə;

**v)** münfəsil – həmzə;  **s)** münfəsil – sükun.

**39. «وَجَاءُ وَ اَبَاهُمْ عِشَاءً» ibarətində məddin növləri tərtiblə aşağıdakı kimidir:**

**a)** müttəsil, münfəsil, təbii, müttəsil;

**b)** münfəsil, münfəsil, təbii, münfəsil;

**v)** münfəsil, münfəsil, təbii, müttəsil;

**s)** müttəsil, təbii, təbii, müttəsil.

**40. Təcvid istilahında mədd ibarətdir:**

**a)** bu «ينمو» dörd hərfdə səsin təbii miqadarından çox uzadılması;

**b)** mədd hərflərində səsin təbii miqdarından çox uzadılması;

**v)** mədd əlamətindən;

**s)** mədd hərflərindən.

**41. "Məddi lazım"ın səbəbi olub, «……» və onun uzadılma miqdarı «……» hərəkədir.**

**a)** həmzə — 6;
**b)** sükun — 6;
**v)** həmzə — 4-dən 6-ya qədər;
**s)** sükun — 4-dən 6-ya qədər.

**42. Müttəsil, lazım və arizi mədlərin uzadılma miqdarı tərtiblə aşağıdakı kimidir:**

**a)** 6 hərəkə, 6 hərəkə, 6 hərəkə;
**b)** 4 hərəkə, 6 hərəkə, 4 hərəkə;
**v)** 5 hərəkə, 6 hərəkə, 2 hərəkə;
**s)** hər üç bənd düzgündür.

**43. «كهيعص» müqəttəə hərflərində olan məddlərdən hansı «məddi lin»dir.**

**a)** كاف **b)** عين
**v)** صاد **s)** hər üç bənd düzgündür.

**44. «خَوْفٍ» kəlməsini vəqf etdikdə hansı növ mədd əmələ gəlir?**

**a)** məddi lin; **b)** məddi arizi;
**v)** məddi vacib; **s)** məddi lazım.

**45. Vəqfin növü iki ibarətin ləfzi və mənəvi rabitəsinə görə ibarətdir:**

**a)** Dəyişilməyən vəqf, iskan vəqfi, ibdal vəqfi;
**b)** Tam vəqf, kafi vəqf, həsən vəqfi, qəbih vəqf;

**v)** Lazım vəqfi, caiz vəqf, qadağan vəqf;
**s)** hər üç bənd düzgündür.

**46. Aşağıdakı əlamətlərdən hansı birisi lazım vəqfinin nişanəsidir.**

**a)** ز  **b)** م

**v)** ط  **s)** a və b bəndləri düzgündür.

**47. Vəqfin bu «م ،ص ،ز» rəmzləri tərtiblə aşağıdakı mənayadır:**

**a)** müstəhəb, «مُرَخَّص», vəslin üstünlüyü;
**b)** lazım, «مُرَخَّص», «مجوَّز»;
**v)** «مجوَّز», vəslin üstünlüyü, caiz;
**s)** lazım, vəslin üstünlüyü, caiz.

**48. معانقه «∴ ∴» vəqfi «.......... vəqf edək» mənasınadır.**

**a)** edə bilmərik o iki yerdən heç birində;
**b)** hökmən o iki yerdən birində;
**v)** edə bilərik o iki yerdən birində;
**s)** edə bilərik hər iki yerdə.

**49. «Vəqfin növünü» təyin edən amillər ibarətdirlər:**

**a)** ləfzi rabitə, vəqf əlamətləri;
**b)** mənəvi rabitə, vəqf əlamətləri;
**v)** ayənin mövzusu, mənəvi rabitə;
**s)** ləfzi rabitə, mənəvi rabitə.

**50. "Səkt"-in yeri Quranda ibarətdir:**

«وقِيلَ مَنْ راقْ – كَلاّ بَلْ رَانَ .....»

**a)** اِرْكَبْ مَعَنَا – عِوَجًا قَيِّمًا

**b)** اِرْكَبْ مَعَنَا – مَرْقَدِنَا هٰذَا

**v)** عِوَجًا قَيِّمًا – مَرْقَدِنَا هٰذَا

**s)** hər üç bənd düzgündür.